26 Fevral Xocalı soyqırımı günüdür!

08 (1365) • 27 fevral - 5 mart 2025-ci il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiymәti razılaşma yolu ilә | Qəzet 1999-cu ildən çıxır

# XOCALI SOYQIRIMI XX ƏSRİN FACİƏSİDİR!

***XX əsrdə bəşər tarixinə Xocalı soyqırımı kimi daxil olan qanlı faciənin 33-cü ildönümü ilə əlaqədar fevralın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva soyqırımı qurbanlarının xatirəsinə Bakının Xətai rayonunda ucaldılmış abidəni ziyarət ediblər.***

Dövlətimizin başçısı Xocalı soyqırımı abidəsinin önünə əklil qoyub, faciə qurbanlarının xatirəsini ehtiramla yad edib.

Birinci xanım Mehriban Əliyeva abidənin önünə gül dəstəsi qoyub, soyqırımı qurbanlarının xatirəsinə ehtiramını bildirib.

* * *

Xocalı soyqırımından 33 il ötür. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələri keçmiş sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı alayının iştirakı ilə Xocalı şəhərini yerlə-yeksan etdi. Erməni təcavüzkarların Azərbaycan xalqına qarşı törətdiyi növbəti kütləvi qırğın nəticəsində 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq, 70 qoca xüsusi amansızlıqla qətlə yetirildi, 1275 dinc sakin əsir götürüldü, 150 nəfərin taleyi isə hələ də məlum deyil. Bu soyqırımı aktı nəticəsində 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirdi.






Uzun illərdir ki, Azərbaycan dövləti Xocalı faciəsi ilə bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması, onun soyqırımı kimi tanıdılması istiqamətində sistemli iş aparır. Bütün dünyanın gözü qarşısında baş verən bu dəhşətli soyqırımının əsl mahiyyəti yalnız Ümummilli Lider Heydər Əliyev 1993-cü ildə siyasi hakimiyyətə qayıtdıqdan sonra açıqlanıb, 1994-cü ilin fevralında Azərbaycan Respublikasının Milli Məclisi Xocalı soyqırımına siyasi-hüquqi qiymət verib.

Prezident İlham Əliyev Xocalı soyqırımını törədənlərin ifşa olunmasını və beynəlxalq ictimaiyyətin geniş məlumatlandırılmasını Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirib və bu istiqamətdə ardıcıl addımlar atılır.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu bəşəriyyətin ən böyük faciələrindən olan Xocalı soyqırımı haqqında faktların dünyaya çatdırılması istiqamətində sistemli və ardıcıl fəaliyyət göstərir. 2008-ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başlanmış "Xocalıya ədalət!" beynəlxalq kampaniyası bu istiqamətdə təbliğat işini daha da fəallaşdırıb. Faciə ilə əlaqədar dəhşətli faktlar bu kampaniya çərçivəsində geniş beynəlxalq ictimaiyyətə çatdırılıb, planetin bütün guşələrində milyonlarla insan erməni millətçilərinin əsl simasına bələd olub.

**Bu gün Xocalı şəhidlərinin ruhları şaddır**

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə çoxəsrlik tariximizdə bənzəri olmayan Vətən müharibəsi, eləcə də uğurlu antiterror tədbirləri nəticəsində respublikamızın ərazi bütövlüyü və suverenliyi tam təmin olunub, Xocalı şəhəri separatçılardan təmizlənib. 2023-cü il oktyabrın 15-də Prezident İlham Əliyev Xocalı şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldıb.

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış çərçivəsində 2024-cü ilin mayında Xocalıya ilk köç baş tutub.

Qeyd edək ki, Prezident İlham Əliyev Azərbaycan xalqına qarşı törədilmiş soyqırımının beynəlxalq səviyyədə tanıdılması və Xocalı faciəsi qurbanlarının əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə "Xocalı şəhərində Xocalı Soyqırımı Memorial Kompleksinin yaradılması haqqında" 2025-ci il fevralın 25-də Sərəncam imzalayıb.

## "PAKİSTAN BİZİM ÜÇÜN ƏN YAXIN DOST VƏ QARDAŞLARDAN BİRİDİR"

"Pakistan bizim üçün ən yaxın dost və qardaşlardan biridir. Xalqlar arasında əlaqələr də uğurla inkişaf edir".

Bu fikirləri Prezident İlham Əliyev Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif ilə mətbuata bəyanatında söyləyib.

*"Azərbaycan Pakistandan müdafiə sənayesinin istehsal etdiyi avadanlığı artıq alıb və biz onun keyfiyyətindən çox razıyıq"*, - deyən dövlətimizin başçısı bildirib ki, birmənalı olaraq, bu işi davam etdirəcəyik. Eyni zamanda, biz müdafiə sənayesi məhsullarının birgə istehsalı imkanlarını müzakirə etdik və bu, əməkdaşlığımızın digər mühüm sektoru olacaq.




## "AZƏRBAYCANLA DOSTLUĞUMUZ, BEYNƏLXALQ SƏVİYYƏDƏ DÜŞÜNCƏ VƏ HƏRƏKƏT VƏHDƏTİMİZ ƏFSANƏVİ OLUB"

"İnşallah, aprel ayında, hər şey müzakirə edildikdən və qərar qəbul olunduqdan sonra mən 2 milyard dollar dəyərində razılıqları tamamlamaq üçün yenə də Sizi İslamabadda qəbul etməkdən böyük şərəf və sevinc hissi keçirəcəyəm".

Bu sözləri Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif Prezident İlham Əliyevlə mətbuata bəyanatında səsləndirib. *"Bu, bizim ticarət və investisiya münasibətlərimizdə ilk keyfiyyətli sıçrayış olacaq və qardaşlıq əlaqələrimizi əhəmiyyətli dərəcədə əks etdirəcək"*, - deyən Baş nazir bildirib ki, çünki bizim dostluğumuz, siyasi anlaşmamız, beynəlxalq səviyyədə, beynəlxalq forumlarda düşüncə və hərəkət vəhdətimiz əfsanəvi olmuşdur. Lakin hesab edirəm ki, iş birliyimiz, ticarətimiz, investisiya münasibətlərimiz bizim əlaqələrin həqiqi gücünü əks etdirmirdi. Hesab edirəm ki, bu gün biz bu hədəfə çatdıq və İnşallah, bir aydan sonra biz həmin böyük qərarın həyata keçirilməsini qeyd edəcəyik.

## "PAKİSTANLA BİRGƏ İSTEHSAL MÜƏSSİSƏLƏRİ MƏSƏLƏSİ ÜZƏRİNDƏ İŞLƏYİRİK"

"Biz bu gün (Pakistanın Baş naziri ilə - red.) müdafiə sənayesi sahəsində çox gözəl əməkdaşlığımızı müzakirə etdik. Biz artıq birgə istehsal müəssisələri məsələsi üzərində işləyirik. Bunun üçün çox böyük potensial var".

Bu sözləri Prezident İlham Əliyev Azərbaycan-Pakistan biznes forumunda deyib. *"Eyni zamanda, bizə məlumdur ki, Pakistanın çox inkişaf etmiş əczaçılıq sahəsi var. Mənə verilən məlumata görə Pakistanda istehsal olunan 90 adda məhsul Azərbaycanda qeydiyyatdan keçirilib. Bizim bu sahədə də birgə istehsal müəssisələrinin yaradılması təklifimiz olacaqdır"*, - deyən dövlətimizin başçısı vurğulayıb ki, biz digər sahələrdə də çox böyük potensial görürük.

## "BAKIDA PAKİSTAN TİCARƏT PALATASININ NÜMAYƏNDƏLİYİ TƏSİS EDİLƏCƏK"

"Azərbaycanın Ticarət Palatasının İslamabadda nümayəndəliyi təsis edilib və bu da imkan verəcək ki, bizim ikitərəfli ticarətimiz inkişaf etsin".

Bu sözləri Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif Azərbaycan-Pakistan biznes forumunda söyləyib.

Baş nazir, həmçinin bildirib: *"Pakistan Ticarət Palatasının nümayəndəliyini Bakıda təsis edəcəyik. Bu iki palata sıx əməkdaşlıq edərək bir-birini qarşılıqlı şəkildə məlumatlandıra və potensial sərmayəçilərə də əlavə informasiya verə bilər"*.

## "BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN BÜTÜN MƏSƏLƏLƏRİNDƏ PAKİSTANLA BİR-BİRİMİZƏ DƏSTƏYİ DAVAM ETDİRƏCƏYİK"

"İki qardaş ölkə olaraq (Azərbaycan və Pakistan – red.) biz beynəlxalq münasibətlərin bütün məsələlərində bir-birimizə dəstəyi davam etdirəcəyik".

Bu sözləri Prezident İlham Əliyev Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif ilə mətbuata bəyanatında səsləndirib.

**"Biz ölkələrimizin suverenliyi və ərazi bütövlüyü məsələsində bir-birimizə qarşılıqlı surətdə dəstək veririk, beynəlxalq təsisatlarda fəal əməkdaşlıq edirik və iştirak etdiyimiz bütün beynəlxalq təşkilatlarda daim bir-birimizi dəstəkləyirik"**, - deyə dövlətimizin başçısı vurğulayıb.

## PAKİSTANIN BAŞ NAZİRİ 7 SAYLI BAKI "ASAN XİDMƏT" MƏRKƏZİNİN FƏALİYYƏTİ İLƏ TANIŞ OLUB

Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif ölkəmizə dövlət səfəri çərçivəsində fevralın 25-də Bakıdakı 7 saylı "ASAN xidmət" mərkəzinin fəaliyyəti ilə tanış olub.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev qonağa Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılmış "ASAN xidmət" mərkəzləri və sosial innovasiyalar istiqamətində həyata keçirilən layihələr barədə ətraflı məlumat verib. Azərbaycanın intellektual brendinin hazırda 20-dən çox ölkəyə ixrac olunduğu diqqətə çatdırılıb.

Mərkəzlə tanışlıqdan sonra jurnalistlərə müsahibə verən Pakistanın Baş naziri deyib: *"Bu "ASAN xidmət" mərkəzini ziyarət etmək bizdə böyük məmnunluq hissi doğurdu. Bu innovativ xidmət modeli çox dəyərli qardaşım, Prezident İlham Əliyevin uzaqgörənliyinin və liderliyinin sübutudur. "ASAN xidmət" mərkəzi qabaqcıl düşüncəni və dinamizmi nümayiş etdirir. Dəyərli qardaşım Prezident İlham Əliyevin düşünülmüş və uzaqgörən siyasətini yüksək qiymətləndirərək Azərbaycanın bu təcrübəsindən faydalanmaq istəyirik"*.

# İqtisadiyyat Nazirliyində Omanın holdinqi ilə danışıqlar aparılıb



İqtisadiyyat Nazirliyində Omanın "Suhail Bahwan Group Holding" şirkətinin nümayəndələri ilə keçirilən görüşdə birgə investisiya layihələri və potensial əməkdaşlıq perspektivləri müzakirə edilib. İqtisadiyyat naziri Mikayıl Cabbarov Omanın "Suhail Bahwan Group Holding" şirkətinin nümayəndələri ilə görüşüb.

Oman şirkətinin təmsilçilərinə ölkəmizdə qeyri-neft iqtisadiyyatının prioritetləri və xarici sərmayələrin qoyuluşu üçün yaradılmış əlverişli biznes mühiti barədə məlumat verilib, bu sahədə dövlət-özəl tərəfdaşlığının önəmi qeyd olunub. Bildirilib ki, Azərbaycanda əlavə dəyər yaradan istehsalın qurulmasına dövlət tərəfindən göstərilən dəstək tədbirləri, eləcə də istehsal olunan məhsulun xarici bazarlara ixracı üçün nəqliyyat-logistika infrastrukturu xarici şirkətlər tərəfindən investisiya qoyulması üçün ölkəmizin cəlbediciliyini artırır.

Tərəflər birgə investisiya layihələri, o cümlədən potensial əməkdaşlıq imkanlarını müzakirə ediblər.

# "Bakıda fasiləsiz su təchizatı 82 %-ə çatıb"

"2006-cı ildə Bakı əhalisinin yalnız 26%-i fasiləsiz su ilə təmin olunurdusa, hazırda bu göstərici 81,7%-ə çatıb". Bunu Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində fəaliyyət göstərən İri Şəhərlərin Su Təchizatı Xidmətinin İdarə Heyətinin sədrinin müşaviri Aydın Abbasov jurnalistlərə açıqlamasında deyib.




O bildirib ki, Bakı şəhərinin yeni Baş Planına uyğun olaraq, 2030-2035-ci illərədək paytaxt və Abşeron yarımadasında fasiləsiz və mərkəzləşdirilmiş su təchizatı tam təmin ediləcək: *"Hazırda bu istiqamətdə dövlət proqramı qəbul edilib və müvafiq layihələr həyata keçirilir. Bakıda su və kanalizasiya infrastrukturunun genişləndirilməsi işləri davam etdirilir. Yeni kollektorların çəkilməsi, mövcud problemlərin həlli və yağış suları sistemlərinin yenilənməsi planlaşdırılır"*.

# "Yağış sularının yenidən istifadəsi ilə bağlı tədqiqatlar aparılır"

"Yayda istər aran, istərsə də digər ərazilərdə su təminatı kifayət qədər olacaq. Lakin bu, sudan qeyri-səmərəli istifadə üçün əsas verməməlidir. Hər bir vətəndaş suyun qorunmasına töhfə verməlidir".



Bunu jurnalistlərə açıqlaması zamanı "İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ-nin İdarə Heyəti sədrinin müşaviri Aydın Abbasov deyib. O qeyd edib ki, hazırda yağış sularının yenidən istifadəsi ilə bağlı tədqiqatlar aparılır.

*"Paytaxtda yağış kollektorlarının qurulması və genişləndirilməsi istiqamətində layihələr həyata keçirilir. Artıq bu suların ayrılması, dövlət su ehtiyatı kimi suvarmada istifadəsi və təbiətə qaytarılması istiqamətində layihələr icra olunur. Bakı şəhəri ətrafındakı təbii göllərin ekoloji vəziyyətinin yaxşılaşdırılması və yağış sularının bu mənbələrə yönləndirilməsi istiqamətində də işlər davam edir. Yaxın illərdə bu layihələr uğurla həyata keçiriləcək"*, - deyə Aydın Abbasov vurğulayıb.

# Azərbaycana turist axını 4%-dən çox artıb

Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən ötən ay Azərbaycan Respublikasına dünyanın 152 ölkəsindən 172,6 min və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 4,1 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib.

Bu barədə Dövlət Statistika Komitəsindən məlumat əldə edilib. Məlumata görə, gələnlərin 24 faizi Rusiya Federasiyası, 18,3 faizi Türkiyə, 9,9 faizi Hindistan, 8,7 faizi İran, 5 faizi Gürcüstan, 3,6 faizi Səudiyyə Ərəbistanı, hər birindən 3,2 faiz olmaqla Birləşmiş Ərəb Əmirlikləri və Qazaxıstan, 3,1 faizi Pakistan, 2,2 faizi Küveyt, hər birindən 1,7 faiz olmaqla Türkmənistan və Özbəkistan, 1,5 faizi Çin, 1,4 faizi Ukrayna, 1,2 faizi İsrail, 1,1 faizi Oman, 10,2 faizi digər ölkələrin vətəndaşları olmuşdur. Gələnlərin 71,9 faizini kişilər, 28,1 faizini qadınlar təşkil edib.

Ötən ilin eyni dövrü ilə müqayisədə İsraildən gələnlərin sayı 3,9 dəfə, Çindən - 2,2 dəfə, Tacikistandan - 2,1 dəfə, İspaniyadan - 1,9 dəfə, Hindistandan - 1,7 dəfə, İordaniyadan - 1,7 dəfə, Misirdən - 42,9 faiz, Niderlanddan - 30,4 faiz, Qırğızıstandan - 27,2 faiz, Pakistandan - 25,6 faiz, ABŞ-dan - 23,7 faiz, Yəməndən - 21,5 faiz, Birləşmiş Ərəb Əmirliklərindən - 20,4 faiz, Türkmənistandan - 16,7 faiz, Qazaxıstandan - 15,5 faiz, Fransadan - 13,9 faiz, İtaliyadan - 11,7 faiz artıb.



# ƏDV depozit hesabı ilə bağlı qaydalarda dəyişikliklər edilib

**Dövlət Vergi Xidməti Nazirlər Kabinetinin ƏDV ilə bağlı qərarını şərh edib**

Nazirlər Kabinetinin 24 fevral 2025-ci il tarixli qərarı ilə "Vergi ödəyicisinə verilmiş elektron qaimə-faktura üzrə alınmış malların (iş və xidmətlərin) dəyəri ödənilərkən ƏDV-nin ödənilməsi, ƏDV-nin depozit hesabında uçotun aparılması, ƏDV-nin hərəkəti, bu hesab üzrə aparılan əməliyyatlardan ƏDV-nin əvəzləşdirilməsi və dövlət büdcəsinə köçürülməsi Qaydaları"nda dəyişikliklər edilib.

ƏDV depozit hesabının rekvizitlərinin göstərilməsi barədə tələb aradan qaldırılıb

Dəyişikliyə əsasən, mal (iş, xidmət) təqdim edən satıcı tərəfindən alıcıya təqdim olunan elektron qaimə-fakturalarda, bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxs tərəfindən alıcıya təqdim olunan elektron qaimə-fakturada, həmçinin kənd təsərrüfatı məhsullarının pərakəndə satışı zamanı alıcıya təqdim olunan qəbzdə, çekdə ƏDV-nin depozit hesabının rekvizitlərinin göstərilməsi tələbi aradan qaldırılıb.

Dəyişikliklərin əsas səbəbi elektron qaimə-fakturanı əldə edən tərəflər arasında ƏDV qeydiyyatında olmayan vergi ödəyicilərinin olması, bəzən ƏDV qeydiyyatında olan vergi ödəyiciləri tərəfindən əməliyyatların müəyyən hissəsinin əməliyyatın xarakterindən asılı olaraq ƏDV-yə cəlb edilməməsi və bu səbəbdən ƏDV ödəmək öhdəliyi yaranmaması zamanı yaranan çaşqınlıqların aradan qaldırılmasıdır.

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti bildirir ki, Qaydaların 2.1-ci bəndinin yarımbəndlərində qeyd olunduğu kimi, ƏDV-yə cəlb olunan (18%) əməliyyatlar üzrə, o cümlədən yaşayış və qeyri-yaşayış sahələrinin alqı-satqısı zamanı ödənilmiş ƏDV-nin bir hissəsinin geri alınması üçün hesablanan vergi məbləğinin ƏDV-nin depozit hesabına köçürməsi ilə bağlı tələblər qüvvədədir.

**ƏDV üzrə öhdəliklərinin yerinə yetirilməsinə dair məlumatların xəzinədarlığa təqdim edilməsi vaxtının dəyişdirilməsi**

Müvafiq qaydalarda edilmiş digər mühüm dəyişiklik vergi ödəyicisi tərəfindən ƏDV sub-uçot hesabından dövlət büdcəsinə ödənişlərin vaxtının uzadılması ilə bağlıdır. Belə ki, vergi ödəyiciləri ƏDV sub-uçot hesabından dövlət büdcəsinə ödənişi, iş günü saat 14.15-dək həyata keçirdikdə, həmin vəsaitin dövlət büdcəsinə ödənilməsi üçün Dövlət Vergi Xidməti tərəfindən müvafiq sənədlərin həmin gün Dövlət Xəzinədarlıq Agentliyinə təqdim edilməsi vaxtı 14:30-dək müəyyənləşdirilib. Dəyişiklikdən əvvəl yalnız 11.30 dək olan ödənişlərin həmin gün DXA-ya təqdim olunması nəzərdə tutulurdu.

Müvafiq dəyişiklik vergi ödəyicilərinin müraciətləri əsasında həyata keçirilib. Qeyd edilib ki, bu məsələ Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın "Vergi və hesabatlılıq" işçi qrupunun iclaslarında sahibkarlıq subyektləri ilə geniş müzakirə olunub. Nəticədə, ƏDV sub-uçot hesabından dövlət büdcəsinə ödəniş müddəti artacaq, Dövlət Xəzinədarlıq Agentliyinə təqdim olunması nəzərdə tutulmuş sənədlərin ötürülməsi prosesi sürətlənəcək və ödəmələrin gün ərzində aidiyyəti üzrə yerli xəzinədarlıq orqanlarına köçürülməsi təmin ediləcək.

# Gələn ilin sonuna qədər Ağdama 20 min əhali köçürüləcək

"2026-cı ilin sonuna qədər Ağdama 20 min əhali köçürüləcək". Bunu Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov jurnalistlərə açıqlamasında deyib.



O bildirib ki, işğaldan azad olunmuş ərazilərdə layihələndirilmə işləri yekunlaşır, gələn ilin sonuna qədər dövlət proqramına daxil olan layihələr başa çatacaq. *"Bu il Ağdam şəhərinə və ətrafında üç kəndinə on minə yaxın əhali köçürülməsi nəzərdə tutulub. 2026-ci ilin sonuna qədər isə 20 min əhalinin köçürülməsi nəzərdə tutulub"*, - o əlavə edib.

# Füzulinin Pirəhmədli və Qaraxanbəyli kəndlərinin tikintisinə başlanılacaq



"Bu yaxınlarda Füzulinin Pirəhmədli və Qaraxanbəyli kəndlərinin tikintisinə başlanılacaq". Bunu Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov jurnalistlərə açıqlamasında deyib.

Onun sözlərinə görə, Füzulidə işsizlik səviyyəsi 9 faizdən aşağıdır.

**"Bu onu göstərir ki, artıq Füzuliyə həyat qayıdıb".**

# Bu il "Dəmirli" yatağında hasilat bərpa ediləcək

Böyük Britaniyanın "Anglo Asian Mining PLC" (AAM) şirkəti işğaldan azad edilmiş və hazırda Tərtər rayonunun ərazisində yerləşən "Dəmirli" mis-molibden yatağında bu ilin sonuna qədər istehsalı bərpa etməyi planlaşdırır.



Bu barədə şirkətdən bildirilib. Şirkət mədən mülkiyyətinin qiymətləndirilməsini də davam etdirir: *"Hazırda təqdim olunan əməliyyat təlimatlarına "Dəmirli" yatağı ilə bağlı hər hansı istehsal, döviriyyə və ya məsrəflər daxil deyil. Onların miqdarı hasilatın bərpa olunacağı tarixdən asılı olacaq"*. Məlumatda qeyd olunub ki, şirkət 2025-ci ilin sonunda, zərurət yaranarsa, əməliyyat təlimatlarına əlavə yeniləmələr edəcək.

"Dəmirli" yatağı Azərbaycanın inzibati xəritəsində Tərtər rayonuna daxildir. Keçmiş Ağdərə rayonunun tərkibində olmuş Dəmirli kəndi, 1992-ci il oktyabrın 13-də Milli Məclisin qərarı ilə Tərtər rayonuna verilib. Bu yataq Azərbaycanın ən iri mis ehtiyatlarından birinə malikdir. Yataqda təxminən 275 min ton mis və 3,2 min ton molibden ehtiyatının olduğu bildirilir.

2019-cu ildə "Azersky" peyk təsvirləri vasitəsilə 740 hektar ərazidə ermənilər tərəfindən qanunsuz geoloji kəşfiyyat, hasilat və infrastruktur tikinti işlərinin aparıldığı müəyyən edilib. Ermənilər bu kəndi Kaşen adlandırırdılar.

# DÖVLƏT VERGİ XİDMƏTİ – 25 İL

*Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu milli vergi sistemi son 25 ildə Prezident İlham Əliyevin rəhbərliyi altında böyük inkişaf yolu keçib. Bu dövrdə vergi inzibatçılığının təkmilləşdirilməsi üzrə dövlət proqramı həyata keçirilib, vergi sisteminin geniş diapazonlu texniki imkanlara malik texnoloji bazası yaradılıb. Nəticədə ölkədə çevik vergi siyasətini həyata keçirməyə qadir, beynəlxalq standartlara cavab verən müasir vergi xidməti formalaşıb.*

*Heydər Əliyev yolunun layiqli davamçısı, Respublika Prezidenti İlham Əliyev digər sahələrdə olduğu kimi, vergi sisteminin də təkmilləşdirilməsini daim diqqət mərkəzində saxlayır. Elə buna görədir ki, hazırda Azərbaycanın vergi xidməti dinamik inkişaf edir.*

*Azərbaycan vergi işçiləri xalqımızın firavan gələcəyinin təmin edilməsi uğrunda görülən işlərdə yaxından iştirak edir, qarşıya qoyulan vəzifələrin uğurla həyata keçirilməsində bütün qüvvə və bacarıqlarını sərf edərək əzmlə çalışırlar.*

*Fevralın 11-də Azərbaycanda vergi işçilərinin peşə bayramı günü qeyd edildi. Bayram Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fərmanı ilə 2005-ci ildən keçirilir. Bu münasibətlə bütün vergi işçilərini təbrik edir, doğma Vətənimizin tərəqqisi uğrunda gördüyü bütün işlərdə uğurlar arzulayıram.*

*Akademik Ziyad SƏMƏDZADƏ*












***İqtisadiyyat Nazirliyində "Vergi xidməti – 25: Davamlı inkişaf və effektiv transformasiya" mövzusunda Forum təşkil olunub. Tədbirdə İqtisadiyyat Nazirliyinin və Dövlət Vergi Xidmətinin rəhbərliyi, dövlət qurumlarının nümayəndələri, millət vəkilləri, sahibkarların ictimai birliklərinin təmsilçiləri, ekspertlər, iş adamları iştirak ediblər.***

Dövlət himninin səsləndirilməsi ilə başlayan tədbirdə iqtisadiyyat naziri Mikayıl Cabbarov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Vergi Xidməti – 25: Davamlı inkişaf və effektiv transformasiya" mövzusunda keçirilən Forumun iştirakçılarına məktubunu oxuyub. Məktubda bildirilir: "Vergi Xidməti – 25: Davamlı inkişaf və effektiv transformasiya" mövzusunda keçirilən Forumun iştirakçılarını salamlayır və Dövlət Vergi Xidməti işçilərini peşə bayramı münasibətilə təbrik edirəm.

***2025-ci il Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilib. Bu il Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümüdür. Respublikamızın ali Qanununun müddəaları dövlətimizin müstəqilliyinin əsaslarını və xalqımızın iradəsini əks etdirərək ölkəmizin demokratik və hüquqi dövlət quruculuğu istiqamətində inamla irəliləməsi üçün zəmindir.***

Konstitusiyamızda vətəndaşların əsas vəzifələrinə aid edilmiş mühüm müddəalardan biri onun 73-cü maddəsində əks olunub: "qanunla müəyyən edilmiş vergiləri və başqa dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəmək hər bir kəsin borcudur". Konstitusiyamızda vergilərə dair müəyyən edilmiş bu müddəa dövlətimizin maliyyə sabitliyinin və davamlı inkişafının təminatı olub, ölkəmizin hüquqi və iqtisadi inkişafı yolunda möhkəm təməl yaradır.

Azərbaycan yüksək inkişaf potensialına malik dinamik bir iqtisadiyyata sahibdir. Biz böyük infrastruktur layihələrini icra edir, müxtəlif sahələrdə rəqabət qabiliyyətini artırmağa yönəlmiş islahatlar həyata keçirir, dayanıqlı və innovativ iqtisadiyyat qurmaqla yanaşı, xarici investisiyaları cəlb edir və yerli istehsalın gücləndirilməsi istiqamətində mühüm addımlar atırıq. Uğurlarımız dayanıqlı iqtisadi artımın sürətini artırmaqla yanaşı, həm də sosial rifahın yüksəlməsinə xidmət edir. Bizim yolumuz davamlı inkişafa və şəffaf idarəetməyə əsaslanır.

Hazırda başlıca hədəfimiz iqtisadiyyatımızı bundan sonra daha da şaxələndirmək və dayanıqlı inkişaf modelini təkmilləşdirməkdir. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" yaxın gələcəkdə inkişaf konsepsiyamızın əsasını təşkil edir. Davamlı güclənən rəqabətqabiliyyətli iqtisadiyyatın, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyətin qurulması, ölkəmizin rəqabətli insan kapitalına söykənən müasir innovasiyalar məkanına və "yaşıl artım" ölkəsinə çevrilməsi, işğaldan azad edilmiş ərazilərimizin yenidən məskunlaşdırılması qarşımızda duran əsas prioritetlərdir. Bu milli prioritetlərin hər biri qarşılıqlı və əlaqəli şəkildə icra edildikdə yüksək nəticələr verəcəkdir.

Bu məqsədlərin reallaşdırılmasının təməlində dövlətin iqtisadi qüdrəti, gəlirləri, fiskal dayanıqlığı durur. Güclü maliyyə imkanlarının formalaşdırılmasına isə effektiv vergi sistemi töhfə verə bilər. Maliyyə imkanlarımızın ildən-ilə artması, büdcə gəlirlərimizin fiskal dayanıqlığı prosesində effektiv və proaktiv vergi siyasətinin həyata keçirilməsi olduqca vacibdir. Vergi sistemində aparılan islahatlar, vergi inzibatçılığında tətbiq olunan yeni yanaşma və mexanizmlər iqtisadiyyatda şəffaflaşmanı keyfiyyətcə yeni bir mərhələyə qaldırıb. Bu gün vergi siyasəti həm aktiv iqtisadi tənzimləmə vasitəsi, həm də stimullaşdırıcı alətdir. Hazırda bütün fiskal yığımların əhəmiyyətli hissəsini məhz vergi orqanları təmin edir.

Ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası işğaldan azad edilmiş ərazilərin iqtisadi inkişafı üçün möhkəm təməl yaradıb. Bu ərazilərdə infrastrukturun bərpası, yeni sənaye və kənd təsərrüfatı sahələrinin yaradılması istiqamətində atdığımız addımlar, regionun milli iqtisadiyyata reinteqrasiyası gələcəkdə əhəmiyyətli irəliləyişlərə səbəb olacaq. İqtisadiyyatın diversifikasiyası və yerli əhalinin sosial rifahının təmin edilməsi bu ərazilərin sürətli inkişafını təmin edəcək, Qarabağ və Şərqi Zəngəzur bölgələri ölkəmizin ümumi iqtisadi potensialına mühüm töhfələr verəcəkdir.

Bu prosesdə vergi siyasətinin və vergi təşviq alətlərinin də böyük rolu var. İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlar üçün uzunmüddətli vergi və gömrük güzəştləri müəyyən edilib. Ərazi bütövlüyümüzün tam bərpa edilməsi xarici investorların da ölkəmizə marağını artırır. Uzun illərdir Azərbaycanda müsbət sərmayə iqlimi mövcuddur, investisiyaların adambaşına düşən həcminə görə biz qabaqcıl ölkələr sırasındayıq. Bununla belə, regionda iqtisadi dayanıqlığın təmin olunması, investisiyaların əhatə dairəsinin daha da genişlənməsi üçün biz daha cəlbedici biznes və vergi mühiti yaratmalıyıq. Sahibkarlara güclü dəstək verilməlidir, süni maneələr aradan qaldırılmalıdır. Dövlətin tənzimləyici qurumlarının əsas vəzifəsi ölkədə biznesin genişlənməsinə, büdcəyə vergi ödəyən güclü orta və iri sahibkarlar təbəqəsinin formalaşmasına istiqamətlənməlidir. Biz qüdrətli dövlət qururuq, belə dövlətin vətəndaşı isə vergi ödəməkdən qürur duymalıdır.

***Vergi sistemi ölkəmizin inkişafında müstəsna rol oynayır və vergi işçiləri həm də dövlətin iqtisadi siyasətinin həyata keçirilməsində mühüm funksiya yerinə yetirirlər. Vergi işçiləri yalnız büdcə gəlirlərinin təminatçısı deyil, həm də iqtisadi sabitliyin və sosial ədalətin qorunması işində önəmli bir missiyanın icraçısıdırlar. Fəaliyyətiniz dövlət büdcəsinin formalaşdırılmasında, eyni zamanda iqtisadi və sosial layihələrin həyata keçirilməsində xüsusi rol oynayır. Vergi ödəyiciləri ilə effektiv əməkdaşlıq, vergi ödəmələrinin düzgün və vaxtında həyata keçirilməsi yalnız iqtisadiyyatı deyil, həm də xalqın dövlətə olan etimadını gücləndirir.***

Ölkəmizin qarşısında duran hədəf və vəzifələr çoxdur. Bu yolda sizin öz işinizə münasibətiniz və vətənə sədaqətiniz bizim üçün qiymətli sərvətdir. Əminəm ki, bu şərəfli vəzifəni yüksək səviyyədə yerinə yetirməkdə və ölkəmizin daha da qüdrətlənməsinə töhfə verməkdə davam edəcəksiniz.

Dövlət Vergi Xidmətinin bütün kollektivinə möhkəm cansağlığı, peşə fəaliyyətində uğurlar diləyirəm. Sizi bir daha təbrik edir, ölkəmizin inkişafı və rifahı yolunda atdığınız hər bir addımda müvəffəqiyyətlər arzulayıram!"

Forumda Azərbaycanın vergi orqanlarının 25 illik fəaliyyəti barədə film nümayiş olunub.

İqtisadiyyat naziri Mikayıl Cabbarov tədbirdə çıxış edərək vergi işçilərini xidmətin 25 illiyi və peşə bayramı münasibətilə təbrik edib. Diqqətə çatdırılıb ki, vergi siyasəti iqtisadiyyatın səmərəliliyinə böyük təsir göstərir.

Qeyd edilib ki, vergi xidməti təkcə fiskal orqan deyil, həm də biznes mühitinin inkişafını dəstəkləyən, şəffaflığa töhfə verən, sahibkarlarla səmərəli tərəfdaşlıq münasibətlərinə malik qurumdur. Son illərdə qeyri-neft sektorunda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin sayının artması və onların ümumi iqtisadiyyatda xüsusi çəkisinin yüksəlməsi bunun əyani göstəricisidir.

Bildirilib ki, iqtisadi gündəliyin əsas prioritetlərindən biri dayanıqlı inkişaf və özəl sektorun gücləndirilməsidir. Özəl sektorun inkişafı ilə yanaşı, son illər aparılan islahatlar nəticəsində dövlət müəssisələrinin rentabelliyinin artdığı qeyd olunub. Həmin müəssisələr risklərdən biri kimi qiymətləndirilən borc yükünü və dövlət büdcəsindən asılılığı azaldıb. Bununla yanaşı, dayanıqlı iqtisadi artımı və fiskal sabitliyi təmin etmək üçün ixracyönümlü sahə və xidmətlərin təşviqinin önəmi bildirilib.

Forumda 2018-2024-cü illərdə ölkəmizin makroiqtisadi artımı, eləcə də qeyri-neft sektorunun böyüməsi, vergi daxilolmlarının qeyri-neft ÜDM-də xüsusi çəkisinin yüksəlməsi, əmək müqavilələrinin sayının artması və digər göstəricilər barədə təqdimat nümayiş etdirilib.

Tədbirdə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva vergi ödəyicilərinin hüquqları və vergi orqanlarının fəaliyyətində şəffaflığın və hesabatlılığın əhəmiyyəti barədə danışıb.

Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov Dövlət Gömrük Komitəsi ilə Dövlət Vergi Xidməti arasında səmərəli əməkdaşlığı vurğulayıb. Bu istiqamətdə vahid risk platforması çərçivəsində tərəfdaşlığın önəmi qeyd edilib.

Sahibkarlar (işəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev vergi orqanlarının ölkə iqtisadiyyatının inkişafına və sahibkarların fəaliyyətinin asanlaşdırılmasına verdiyi töhfələrdən danışıb.

Tədbirdə Dövlət Vergi Xidmətinin əməkdaşlıq etdiyi beynəlxalq təşkilatların nümayəndələrinin - İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının baş katibinin müavini Fabrisiya Lapekorella, Avropadaxili Vergi Administrasiyaları Təşkilatının icraçı katibi Aliks Perrinyon və Vergi Məqsədləri üzrə Şəffaflıq və Məlumat Mübadiləsinə dair Qlobal Forumun Katibliyinin rəhbəri Zayda Manattanın videotəbrikləri səsləndirilib.

Forumda İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəisi Orxan Nəzərli çıxış edib. Xidmət rəisi 25 illik tarixə nəzər salaraq vergi sistemində reallaşdırılan islahatlar barədə danışıb, bu sahədə son illər əldə edilən nəticələr, "Dövlət Vergi Xidmətinin 2025-2028-ci illər üzrə Strategiyası", gələcək vergi siyasətinin istiqamətləri və s. barədə məlumat verib. Bildirilib ki, 25 illik tarixə malik vergi sistemi hazırda "kölgə iqtisadiyyatı" ilə mübarizə, iqtisadiyyatda şəffaflığın artırılması, haqlı rəqabətin qorunması, intizamlı vergi ödəyicilərinə fərqli münasibət göstərilməsi, dövlətin vergi tənzimləmə alətlərindən fəal istifadəsi, sahibkarlığın dəstəklənməsi kimi yeni yanaşmalarla fəaliyyət göstərir. 2024-cü ildə vergi daxilolmalarının həcminin 15,8 milyard manatı keçdiyi, vergi gəlirlərinin 2019-cu ilin əvvəli ilə müqayisədə 2,1 dəfədən çox artdığı, Dövlət Vergi Xidmətinin xətti ilə toplanan fiskal yığımların 22,8 milyard manat təşkil etdiyi, Xidmətin bütün fiskal yığımların 77 faizindən çoxunu təmin edən orqan olduğu diqqətə çatdırılıb. Aktiv vergi ödəyicilərinin sayı isə 2019-cu illə müqayisədə 1,8 dəfə artaraq 2024-cü ildə 806,9 min təşkil edib.

Forumun işi sessiyalarla davam edib. Moderatoru Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov olan "Müasir vergi sistemi: strateji hədəflər və perspektivlər" mövzusuna həsr olunmuş sessiyada iqtisadiyyat nazirinin müşaviri Elvin Camalov, Dövlət Vergi Xidmətinin rəis müavini Samirə Musayeva və "McKinsey" şirkətinin partnyoru Simay Erdoğan çıxış ediblər.

Moderatoru "Deloitte Azerbaijan" şirkətinin vergi üzrə partnyoru Nərmin Aslanova olan "Vergi inzibatçılığında rəqəmsal transformasiya: yeni yanaşmalar və müasir trendlər" mövzusuna həsr olunmuş ikinci sessiyada Dövlət Vergi Xidmətinin rəis müavini Emil Qarayev, Azərbaycan Beynəlxalq Bankının Agile ofisinin rəhbəri Həsən Eminov, "Carlsberg" Azərbaycan şirkətinin Korporativ əlaqələr üzrə rəhbəri Lalə Əfəndi çıxış ediblər.

***Moderatoru ADA Universitetinin prorektorunun müşaviri Aygün Hacıyeva olan "Yeni iqtisadi inkişaf modelində dövlət – biznes tərəfdaşlığının əhəmiyyəti" mövzusunda sessiyada isə bp-nin vergi məsələləri üzrə meneceri Ceyhun Məmmədov, Dövlət Vergi Xidmətinin baş idarə rəisi Nicat İmanov, PwC şirkətinin vergi direktoru Günel Sadiyeva çıxış ediblər.***

Sessiyalarda müzakirələr aparılıb, suallar cavablandırılıb. Çıxışlarda ölkədə yaranmış yeni iqtisadi şəraitdə biznes mühitinin dəstəklənməsi, iqtisadi idarəetmənin yeni çağırışlara uyğun həyata keçirilməsi və vergi inzibatçılığının təkmilləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər müsbət qiymətləndirilib, islahatlara dair təkliflər səsləndirilib.

Forum çərçivəsində "Yaşıl enerji üzrə ən böyük investor", "İşğaldan azad olunmuş ərazilər üzrə investor", "Dövlət sektoru üzrə fəal ixracatçı", "Özəl sektor üzrə fəal ixracatçı", "Bank və sığorta sahəsi üzrə məşğulluğun inkişafına töhfə verən", "Nəqliyyat sahəsi üzrə məşğulluğun inkişafına töhfə verən", "Sənaye sahəsi üzrə məşğulluğun inkişafına töhfə verən", "Xidmət sahəsi üzrə məşğulluğun inkişafına töhfə verən", "Qeyri-neft sektoru üzrə vergi rekordçusu", "Neft sektoru üzrə vergi rekordçusu", "Regionlar üzrə vergi rekordçusu", "Kənd təsərrüfatı sahəsi üzrə məşğulluğun inkişafına töhfə verən", "Rabitə sahəsi üzrə məşğulluğun inkişafına töhfə verən", "Ticarət sahəsi üzrə məşğulluğun inkişafına töhfə verən", "Tikinti sahəsi üzrə məşğulluğun inkişafına töhfə verən", "Fəal ianəçi", "Dost" nominasiyaları üzrə fərqlənən vergi ödəyiciləri sertifikatlarla təltif olunublar.

## Оценены перспективы совместных инвестпроектов между Азербайджаном и Оманом



На встрече с представителями оманской компании "Suhail Bahwan Group Holding" в министерстве экономики Азербайджана были обсуждены совместные инвестиционные проекты и потенциальные перспективы сотрудничества.

Как сообщили Trend в министерстве, обсуждения были проведены во время встречи министра экономики Микаила Джаббарова с представителями оманской компании Suhail Bahwan Group Holding. Представителям оманской компании была предоставлена информация о приоритетах ненефтяной экономики в Азербайджане и благоприятной бизнес-среде, созданной для иностранных инвестиций, отмечена важность государственно-частного партнерства в этой области. Было подчеркнуто, что меры государственной поддержки строительства в Азербайджане производства, создающего добавленную стоимость, а также транспортно-логистическая инфраструктура для экспорта произведенной продукции на зарубежные рынки повышают привлекательность нашей страны для инвестиций со стороны иностранных компаний.

## Россия расчитывает на скорейшее начало строительства железной дороги “Решт-Астара”

Об этом заявил министр иностранных дел России Сергей Лавров в ходе совместной пресс-конференции с иранским коллегой Аббасом Арагчи.

“Мы выражаем удовлетворение тем, что все те шаги, которые требуются предпринять перед началом строительства железнодорожной ветки “Решт-Астара”, иранские друзья предпринимают и рассчитываем, что в самое ближайшее время строительство начнется. Для этой цели будет предоставлен российский экспортный кредит. Участок Решт-Астара позволит сделать очень важный шаг, поскольку он является частью, необходимой для полноценного запуска международного транспортного коридора “Север-Юг”, - заявил С.Лавров.

Отметим, что 17 мая 2023 года между Россией и Ираном было подписано соглашение о строительстве железной дороги Решт-Астара в провинции Гилан на севере Ирана.



На железнодорожной линии Решт-Астара протяженностью около 163 км будут построены 9 станций.

## Назван объем инвестиций Фонда аграрного страхования Азербайджана

В этом году объем инвестиций Фонда аграрного страхования составляет около 22-23 миллионов манатов.

Об этом сказал председатель правления Фонда аграрного страхования Азербайджана Фуад Садыгов на мероприятии **“Аграрное страхование в Азербайджане: развитие и перспективы”.**

***“В начале каждого года определяются направления инвестиций. Например, в этом году инвестиционные***



***направления Фонда аграрного страхования составляют около 22-23 миллионов манатов. Эти средства предоставляются на государственные ценные бумаги, а также банкам с рейтингом выше В присвоенным международными рейтинговыми агентствами. В стране 5 таких банков. Мы инвестируем только в государственные банки, государственные ценные бумаги и банки с рейтингом выше В присвоенные международными агентствами”***, - сказал он.

## Поддержка фермеров останется ключевым элементом аграрной политики



Поддержка фермеров останется ключевым элементом аграрной политики Азербайджана в будущем.

Как сообщает во вторник Trend, об этом заявил советник министра сельского хозяйства Заур Алиев на мероприятии на тему “Аграрное страхование в Азербайджане: Развитие и перспективы”, проходящем в Баку.

Он отметил, что за последние пять лет в аграрной сфере была осуществлена успешная деятельность.

***“Для этого также сформирована правовая база. Механизм аграрного страхования развивается за счет самосовершенствования. На фоне изменений климата в последние годы объем страховых выплат позволяет фермерам продолжать свою деятельность”***, - сказал он.

# В МИРЕ

## Кремль не подтверждает слова Трампа

Пресс-секретарь президента России Дмитрий Песков не подтвердил заявление Дональда Трампа о том, что Владимир Путин поддержал идею размещения европейских миротворцев в Украине, пишет РБК.

Трамп утверждал, что Путин «не возражал» против этой инициативы. Однако Песков сослался на позицию главы МИД РФ Сергея Лаврова и добавил: «Мне нечего комментировать».




Лавров ранее сказал, что развертывание миротворцев НАТО в Украине неприемлемо для России, а МИД РФ предупреждал, что Москва рассматривает такую инициативу как шаг к эскалации войны.

Напомним, Трамп заявлял, что поддерживает идею ввода европейских миротворцев в Украину после прекращения огня, но без участия американских войск. В свою очередь, президент Украины Владимир Зеленский подчеркивал, что стране необходимо 100 тысяч европейских миротворцев для обеспечения безопасности после завершения боевых действий.

## Эрдоган и Макрон обсудили ситуацию в Украине

Президент Турции Реджеп Тайип Эрдоган провел телефонный разговор с президентом Франции Эммануэлем Макроном, передает Trend.

Согласно информации, в ходе разговора Эрдоган заявил, что Турция продолжает усилия по прекращению войны между Россией и Украиной и обеспечению справедливого и прочного мира. Эрдоган заявил, что Турция, как страна, которой не раз удавалось усадить за стол переговоров противоборствующие стороны, может внести свой вклад в мирные переговоры, в том числе путем их



проведения у себя, и что важно начать переговорный процесс, не исключающий ни одну из конфликтующих сторон.

Президент Турции заявил, что план депортации палестинцев в Египет, Иорданию или любую другую третью страну неприемлем.

Стороны договорились работать более скоординированно в новую эпоху в качестве лидеров двух союзников по НАТО.

## Европейцы отказываются от автомобилей Маска

В январе компания Илона Маска продала всего 9945 автомобилей, что на 45% меньше, чем годом ранее. В то же время общий рынок электромобилей вырос на 37%.

Tesla зарегистрировала в Германии 1277 новых авто, что стало минимальным результатом с июля 2021 года. Во Франции продажи упали на 63%, а в Великобритании компания уступила китайской BYD по числу продаж.

Аналитики связывают спад с нехваткой запасов из-за перехода на новый дизайн Model Y. Ранее финансовый директор Вайбхав Танеджа предупреждал о задержках из-за обновлений.

Неделю назад акции Tesla на NASDAQ упали на 6,34%, а за пять торговых сессий потеряли почти 17%. Стоимость компании снизилась более чем на 200 миллиардов долларов на фоне опасений о том, что Tesla отстает от конкурентов, таких как BYD, который внедряет искусственный интеллект DeepSeek.

## Детские сады Стокгольма избавляются от токсичных игрушек

Детские сады в Стокгольме предпринимают меры по снижению воздействия вредных химических веществ.

Уже заменены матрасы и старые пластиковые игрушки, содержащие опасные химические соединения. Теперь внимание уделяется и мягким игрушкам, которые также могут представлять потенциальный риск для здоровья детей.

Принятый план по контролю за химическим воздействием включает меры по сокращению содержания устойчивых химикатов PFAS, а также гормонально-активных веществ в товарах, закупаемых городом. Приоритет отдается защите здоровья детей и молодежи, поскольку они особенно чувствительны к воздействию химических соединений.



Глава департамента окружающей среды и климата Оса Линдхаген заявила, что город ежегодно выделяет 8 млн крон (более 750 тыс. долларов) на проведение работ по замене опасных материалов.

«Новые детские сады должны строиться с учетом экологической безопасности, поскольку вредные вещества могут содержаться не только в игрушках, но и в строительных материалах», - подчеркнула Линдхаген.

# “Azərbaycanda aqrar sığorta: İnkişaf və perspektivlər" mövzusunda tədbir keçirilib



Aqrar Sığorta Fondunun təşkilatçılığı ilə "Azərbaycanda aqrar sığorta: İnkişaf və perspektivlər" mövzusunda tədbir və KİV nümayəndələri ilə görüş keçirilib.
Tədbirdə Aqrar Sığorta Fondunun, Kənd Təsərrüfatı Nazirliyinin, Medianın İnkişafı üzrə Dövlət Agentliyinin və Azərbaycan Respublikasının Kosmik Agentliyi - “Azərkosmos”un, “Agro Dairy” şirkətinin rəhbərliyi və nümayəndələri, eləcə də fermer və təsərrüfat nümayəndələri və digər qonaqlar iştirak ediblər.
Tədbirdə Azərbaycanda və dünyada aqrar sığorta mexanizminin yaradılması və inkişafı, Aqrar Sığorta Fondunun fəaliyyəti, o cümlədən 2024-cü ilin nəticələri, eləcə də sığorta hadisələrinin tənzimlənməsi ilə bağlı təqdimatlar edilib, fermer və təsərrüfat rəhbərlərinin çıxışları dinlənilib.
Tədbirdə giriş sözü ilə çıxış edən Aqrar Sığorta Fondunun İdarə Heyətinin sədri Fuad Sadıqov bildirib ki, aqrar sığorta mexanizmi dövlətin aqrar sektora dəstəyinin növbəti addımıdır. 2019-cu ildə Azərbaycan Prezidenti İlham Əliyevin fərmanı ilə yaradılan Aqrar Sığorta Fondu ötən 5 il ərzində maliyyə dayanıqlı bir təşkilata çevrilərək fermerlərin risklərini uğurla qarşılamaqdadır. Fond sədri bildirib ki, yeni yaradılmış aqrar sığorta mexanizmi dövlətin fermerlərə dəstəyinin daha bir nümunəsi olmaqla yanaşı, bu sahəyə dövlətin və fermerlərin yatırdığı investisiyaları qoruyur. Xüsusilə iqlim dəyişiklikləri dövründə aqrar sığorta mexanizmi təsərrüfatları çoxsaylı risklərdən, o cümlədən təbii fəlakətlərdən qoruyur.

# “Aqrar Sığorta Fondunun aktivləri 3 dəfədən çox artıb”

“Hər il 450 min hektar ərazi sığortalanır və bu göstəricidə hər il artım qeydə alınır”.
Bu sözləri Aqrar Sığorta Fondunun İdarə Heyətinin sədri Fuad Sadıqov “Azərbaycanda aqrar sığorta: İnkişaf və perspektivlər” mövzusunda keçirilən tədbirdə çıxışı zamanı deyib.
O bildirib ki, ölkədə əkinəyararlı ərazilərin 96 faizi sığorta üçün əlçatandır.



*“Aqrar Sığorta Fondunun nizamnamə kapitalı 9 milyon manat təşkil edir və aqrar sığorta sisteminin 4-5 il ərzində fəaliyyəti nəticəsində aktivlər 9 milyondan 30 milyon manata qədər artıb. Sistemin dayanıqlığı prizmasından bu, vacib mesajdır”*, - deyə o bildirib.

# “Fermerlərə dəstək aqrar siyasətin əsas alətlərindən olacaq”

“Son illər iqlim dəyişikliyi kontekstində mövcud şərtlər aqrar sığorta sisteminin inkişafını və genişlənməsini labüd edir. Bu istiqamətdə son 5 ildə uğurlu fəaliyyətlər icra olunur”.
Bu sözləri kənd təsərrüfatı nazirinin müşaviri Zaur Əliyev “Azərbaycanda aqrar sığorta: İnkişaf və perspektivlər” mövzusunda keçirilən tədbirdə çıxışı zamanı deyib. O bildirib ki, növbəti dövrlərdə də fermerlərə dəstək aqrar siyasətin əsas alətlərindən olacaq.
*“Aqrar sığorta mexanizmi özünü təkmilləşdirərək inkişaf edir. Son illər baş verən iqlim dəyişikliyi fonunda sığorta ödənişlərinin həcmi fermerlərə fəaliyyətini davam etdirməyə imkan verir. Xərclərin 50 faizinin dövlət tərəfindən qarşılanması da dövlət dəstəyi aləti olaraq öz səmərəliliyini göstərib”*, - deyə o qeyd edib.

# Ekoloji, sosial və korporativ idarəetmə standartları üzrə Yol xəritəsinin icrasına başlanılıb

Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) rəhbərlik etdiyi “Korporativ idarəetmə, investisiyalar və korporativ sosial məsuliyyət” işçi qrupunun “Ekoloji, sosial və korporativ idarəetmə (ESG) standartları üzrə” altqrupunun 2025-ci il üzrə ilk iclası keçirilib.
Komissiyanın və KOBİA-nın təşkilatçılığı ilə keçirilmiş iclasda müvafiq dövlət qurumlarının və özəl sektorun nümayəndələri, ekspertlər iştirak ediblər.





Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Katibliyinin rəhbəri, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin sektor müdiri Vüsal Şıxəliyev və KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov 2024-cü ildə ESG üzrə altqrupun fəaliyyətini və görülmüş tədbirləri müsbət qiymətləndiriblər.
Qeyd olunub ki, ESG ilə bağlı müxtəlif maraqlı tərəflərin məlumatlandırılması, təlimlərin təşkili, ayrı-ayrı sahələr üzrə qanunvericilik çərçivəsinin təkmilləşdirilməsi, metodoloji bazanın inkişaf etdirilməsi, şəbəkələşmə və s. kimi istiqamətlərdə işlər görülüb.
Vurğulanıb ki, qarşıdakı dövrdə də ESG üzrə bir sıra tədbirlərin icrası nəzərdə tutulur. Bu məqsədlə artıq ESG üzrə 2025-ci il üçün Yol xəritəsi təsdiq edilib və icrasına başlanılıb.
İclasda “ESGhub.az” platforması və milli ESG standartına, SOCAR-ın ESG reytinqi üzrə aparılmış tədqiqatın nəticələrinə, eləcə də 2025-ci il üzrə Yol xəritəsinə dair təqdimatlar keçirilib.

# ESG üzrə milli standart və rəqəmsal platformadan effektiv istifadə etmək vacibdir




“Ekoloji, sosial və korporativ idarəetmə (ESG) üzrə milli standart və rəqəmsal platformanın hazırlanması mühüm bir nəticə olduğu kimi, onlardan effektiv istifadə edilməsi və mümkün qədər faydalanmaq vacibdir”.
Bu barədə Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov ESG alt-qrupun iclasında deyib.
“Əminəm ki, doğru planlamanın edilməsi, effektiv rol bölgüsünün aparılması, funksional vəzifələrin düzgün paylaşılması, bütün maraqlı tərəflərin təşəbbüskarlığı və məsuliyyətli yanaşması ilə qarşıya qoyulan hədəflərə nail ola biləcəyik. Eyni zamanda, cari ildə ESG üzrə potensialın artırılması, təlim və məlumatlandırma tədbirləri də davam etdiriləcək”, - deyə KOBİA-nın İdarə Heyətinin sədri vurğulayıb.
O.Məmmədov qeyd edib ki, ESG-hub platforması isə dövlət və özəl sektor tərəfdaşlığının effektiv nəticəsinin nümunəsidir: *“Vahid rəqəmsal platforma faydalı dəstək aləti rolunu oyanmaqla ESG prinsiplərinin biznes proseslərində necə tətbiq edilə bildiyi barədə biznesləri istiqamətləndirəcək, onlara hansı addımlar atmalı olduğunu göstərəcək və yardımçı olacaq. Bu resursların mühüm xüsusiyyəti onların məhz bizneslərin rəyi və ehtiyacları əsasında hazırlanmasıdır. Belə ki, 2023-cü ildə KOBİA tərəfindən peşəkar şirkət cəlb edilməklə ölkə üzrə ESG sahəsində tələbrüatlı sorğu aparılıb”.*

# Azərbaycan və Çin müxtəlif istiqamətlərdə investisiya imkanlarını dəyərləndirib

Azərbaycan İnvestisiya Holdinqi (AİH) və Çin İnvestisiya Korporasiyası (CIC) arasında əməkdaşlıq məsələləri müzakirə edilib. Bu barədə Trend Azərbaycan İnvestisiya Holdinqinə istinadən xəbər verib.
Belə ki, Azərbaycan İnvestisiya Holdinqinin (AİH) baş icraçı direktoru Ruslan Əlixanov Pekin şəhərində Çin İnvestisiya Korporasiyasının (CIC) sədri Zhang Qingsong ilə görüş keçirib.
Qeyd olunub ki, görüşdə qlobal makro-iqtisadi vəziyyət, AİH və CIC arasında müxtəlif istiqamətlərdə əməkdaşlıq və digər mövzular ətrafında fikir mübadiləsi aparılıb.

# Qarabağ və Şərqi Zəngəzur üzrə kredit qoyuluşlarının həcmi açıqlanıb

Bu ilin fevralın 1-nə Şərqi Zəngəzur iqtisadi rayonu üzrə 9,8 milyon manat kredit qoyulub.
Bu barədə Mərkəzi Bankdan məlumat verilib.
Məlumata əsasən, bu göstərici üzrə orta faiz dərəcəsi 15,69% təşkil edib.
Sözügedən dövr ərzində regiona qoyulmuş kreditlərin 9,1 milyon manatı milli valyutada, 698 min manatı isə sərbəst dönərli valyutada (SDV) yerləşdirilib.
Eyni zamanda, bu ilin fevralın 1-nə Qarabağ iqtisadi rayonu üzrə isə kredit qoyuluşlarının həcmi 474,7 milyon manat təşkil edib ki, bu göstərici üzrə orta faiz dərəcəsi 19,16%-ə bərabər olub.
Dövr ərzində regiona qoyulmuş kreditlərin 473 milyon manatı milli valyutada, 1,6 milyon manatı isə sərbəst dönərli valyutada (SDV) yerləşdirilib.
Qeyd edək ki, bu ilin fevralın 1-nə olan məlumata əsasən, cəmi regionlar üzrə kredit qoyuluşlarının həcmi 27,5 milyard manata bərabər olub.

# TÜRKPA-nın İqtisadi əməkdaşlıq komissiyasının 12-ci iclası keçirilib



Fevralın 25-də Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) İqtisadi əməkdaşlıq komissiyasının “Enerji təhlükəsizliyi iqtisadiyyatın dayanıqlı inkişafının amili kimi” mövzusuna həsr olunmuş videokonfrans formatında 12-ci iclası keçirilib.
Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildiriblər ki, iclasda Azərbaycan nümayəndə heyətini Milli Məclisin deputatı, İqtisadi əməkdaşlıq komissiyasının üzvü Ağalar Vəliyev təmsil edib. Deputat çıxışı zamanı Milli Məclis tərəfindən enerji sahəsinin qanunvericilik bazasının daha da təkmilləşdirilməsi istiqamətində müntəzəm olaraq məqsədyönlü işlərin aparıldığından danışıb, ölkədə keçirilən mühüm tədbirlərdən bəhs edib.
Sonra komissiya iclasının əsas mövzusuna dair hesabat məruzəsi və tövsiyə qərarları, habelə komissiya çərçivəsində hazırlanmış “İqtisadi fəaliyyətdə təmiz enerji haqqında” model qanun layihəsi müzakirə edilərək təsdiq edilib.
Sonda komissiyanın növbəti iclasının gündəliyi, mövzusu və tarixi müəyyənləşdirilib.

# “Abşeron” yatağının işlənməsinin ikinci mərhələsinin ilkin mühəndis layihələndirilməsi başlayıb

Fransanın “TotalEnergies” şirkəti Azərbaycanda “Abşeron” qaz-kondensat yatağının işlənməsinin ikinci mərhələsi üçün “Front End Engineering Design” (FEED) layihəsinə başlayıb. 2023-cü ilin iyul ayından istismara verilən “Abşeron” yatağının işlənməsinin birinci mərhələsində ildə 1,5 milyard kubmetr qaz və sutkada 12 min barel kondensat hasilatı təmin edilməklə istehsalın sabit və təhlükəsiz səviyyəsi qorunur.
*“Yatağın işlənməsinin ikinci mərhələsi (tammiqyaslı işlənmə - FFD) üçün FEED layihəsi bir il ərzində yekun investisiya qərarının (FİD) qəbul edilməsinə hazır olmaq məqsədi ilə 2025-ci ilin əvvəlində başlayıb”*, - deyə şirkət qeyd edib.
Qeyd edək ki, Azərbaycanın Avropanın 10 ölkəsi - İtaliya, Yunanıstan, Bolqarıstan, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya, Slovakiya və Şimali Makedoniya ilə qaz təchizatına dair müqaviləsi var. Azərbaycan qazı Avropaya “Cənub Qaz Dəhlizi” qaz kəmərləri sistemi vasitəsilə çatdırılır.

# Fiziki şəxslərin əmanətlərinin dollarlaşması azalıb



Cari ilin yanvar ayında banklar 71 milyon manat xalis mənfəət, 122,5 milyon manat məbləğində əməliyyat mənfəəti əldə ediblər.

AZƏRTAC Mərkəzi Banka istinadla xəbər verir ki, fiziki şəxslərin əmanətlərinin 66 faizi (9,497 milyon manat) milli valyutada, 34 faizi (4 milyard 888,4 milyon manat) xarici valyutadadır.

Fiziki şəxslərin əmanət portfelinin 60,8 faizi (8 milyard 746,8 milyon manat) müddətli əmanətlərdən ibarətdir. Fiziki şəxslərin müddətli əmanətləri yanvar ayında 1,7 faiz və ya 146 milyon manat artıb. Hüquqi şəxslərin tələbli depozitləri 16 milyard 671,1 milyon manat olmaqla, hüquqi şəxslərin cəmi depozit portfelinin 73,8 faizini təşkil edib.

Fiziki şəxslərin əmanətlərinin dollarlaşması əvvəlki ilin müvafiq dövrünə nəzərən 1,5 faiz bəndi azalaraq 33,5 faiz olub.

# Bankların kredit portfeli açıqlanıb




Yanvarda fəaliyyətdə olan bankların cəmi aktivləri 53 milyard 90,7 milyon manat, cəmi öhdəlikləri 46 milyard 402,3 milyon manat, balans kapitalı 6 milyard 688,4 milyon manat olub.

Mərkəzi Bankdan bildirilib ki, hesabat ayında bankların kredit portfeli 0,1 faiz və ya 37 milyon manat artaraq 27 milyard 514,7 milyon manat təşkil edib. Kredit portfelinin strukturu: biznes kreditləri – 53,5 faiz (14 milyard 709,9 milyon manat); istehlak kreditləri – 31,1 faiz (8 milyard 551,7 milyon manat) və ipoteka kreditləri – 15,4 faiz (4 milyard 253,1 milyon manat).

Cəmi kredit portfelində (BOKT-lər və kredit ittifaqları daxil olmaqla) vaxtı keçmiş kreditlərin payı əvvəlki ilin müvafiq dövrünə nəzərən 0,3 faiz bəndi azalaraq 1,6 faiz olub.

Bankların öhdəliklərinin strukturunda ənənəvi olaraq depozit portfeli üstünlük təşkil edir – cəmi öhdəliklərin 79,7 faizi və ya 36 milyard 961 milyon manat. Depozit portfelinin 61,1 faizi (22 milyard 575,5 milyon manat) hüquqi şəxslərin, 38,9 faizi (14 milyard 385,4 milyon manat) fiziki şəxslərin depozitlərindən (fərdi sahibkarlıqla məşğul olan fiziki şəxslərin depozitləri istisna olmaqla) ibarətdir.

# Azərbaycanda problemli kreditlərin həcmi artıb

Fevralın 1-nə Azərbaycanda vaxtı keçmiş kreditlərin məbləği 475,1 milyon manat təşkil edib.

Azərbaycan Mərkəzi Bankından bildirilib ki, bu göstərici cari il yanvar ayının 1-i ilə müqayisədə 5,8 faiz və ya 26 milyon manat çoxdur.

Ölkədə problemli kreditlərin məbləği son 1 ildə isə 4,6 faiz və ya 21 milyon manat artıb.

# Ötən il özəlləşdirmədən dövlət büdcəsinə 108,9 milyon manat vəsait ödənilib



İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən dövlət əmlakının özəlləşdirilməsi sahəsində işlər davam etdirilir.

Xidmətin yaydığı məlumatda bildirilir ki, 2024-cü ildə 45 hərrac keçirilib. Hərraclarda 6 səhmdar cəmiyyətinin səhm paketi, 6 kiçik dövlət müəssisəsi və 589 nəqliyyat vasitəsi özəlləşdirilib. Ötən il ərzində hərraca çıxarılmış dövlət əmlakı üzrə 402 elektron sifariş qəbul edilib, hərraclarda iştirak etmək məqsədilə "Elektron hərrac" proqram təminatı vasitəsilə 56 onlayn qoşulma reallaşıb.

Dövlət əmlakının özəlləşdirilməsinin mütərəqqi üsullarından biri də investisiya müsabiqəsidir. Ötən il ərzində "Bakı Alüminium Profil" MMC və "Bakı Mərmər Qranit" MMC-nin dövlətə məxsus payları, uşaq bezi və salfet kağızı istehsalı müəssisənin (əmlak kompleksi kimi) və "Gəncə-Qənnadı" Açıq Səhmdar Cəmiyyətinin dövlətə məxsus 30 faizlik qalıq səhm zərfi investisiya müsabiqəsinə çıxarılaraq özəlləşdirilib. Sözügedən müsabiqələrin qalibləri tərəfindən götürülmüş öhdəliklərə əsasən, dövlət büdcəsinə ümumilikdə 28,45 milyon manat vəsaitin ödənilməsi, müəssisələrə 27,25 milyon manat investisiya yatırılması və 280 iş yerinin yaradılması planlaşdırılır.

Əvvəlki illərdə investisiya müsabiqəsi vasitəsilə özəlləşdirilmiş müəssisələr də daxil olmaqla 2024-cü il ərzində müəssisələrə 4,6 milyon manata yaxın investisiya yatırılıb, dövlət büdcəsinə 3,1 milyon manat ödənilib.

2024-cü ildə özəlləşdirmədən dövlət büdcəsinə daxilolmalar 108,9 milyon manat təşkil edib və illik proqnoz 103.7% icra olunub.

# "Bu il Azərbaycanda 28-33 min unsiya qızıl istehsal etməyi planlaşdırırıq"



Bunu Azərbaycanda qızıl, gümüş və mis hasilatı ilə məşğul olan Böyük Britaniyanın "Anglo-Asian Mining Plc." şirkətinin baş icraçı direktoru Rza Vəziri deyib.

O həmçinin bildirib ki, AAM bu il 6500 – 6800 ton mis istehsalı proqnozlaşdırıb: "Mis şirkətin istehsalının getdikcə daha vacib bir hissəsinə çevrilir. 2025-ci ildə istehsalımız 2024-cü illə müqayisədə əhəmiyyətli dərəcədə artacaq. Çünki istehsal portfelimizdə misin payını artırmağa başlayırıq. Bununla yanaşı, qarşıdakı illərdə daha böyük Qaradağ və Xarxar mis aktivlərini istehsala daxil edəcəyik".

Qeyd edilib ki, 2025-ci il maliyyə ili üzrə qızılın unsiyasının qiyməti 2800 ABŞ dollarından, misin tonunun qiyməti isə 9 000 dollardan hesablanıb.

Xatırladaq ki, "Anglo-Asian"ın 2024-cü il üzrə qızıl hasilatı 15 073 unsiya, mis hasilatı isə 377 ton təşkil edib.

# "AzerGold" QSC-də Pakistanın "Frontier Works Organization" şirkətinin nümayəndə heyəti ilə görüş keçirilib




Fevralın 25-də "AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov Azərbaycan-Pakistan Biznes Forumu çərçivəsində ölkəmizdə səfərdə olan Pakistan İslam Respublikasının "Frontier Works Organization" şirkətinin Baş icraçı direktoru Abdul Saminin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Dağ-mədən və geologiya sahələrində birgə əməkdaşlıq imkanları, ortaq layihələrin icrası perspektivlərinin müəyyənləşdirilməsi məqsədilə keçirilən görüşdə Zakir İbrahimov əvvəlcə ölkələrimiz və xalqlarımız arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə yüksələn xətlə inkişaf etdiyini, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Pakistan İslam Respublikasının Baş naziri cənab Məhəmməd Şahbaz Şərif tərəfindən strateji əhəmiyyət kəsb edən bu əlaqələrin daha da möhkəmləndirilməsi istiqamətində zəruri tədbirlərin həyata keçirildiyini diqqətə çatdırıb.

İdarə Heyətinin sədri "AzerGold" QSC-nin fəaliyyət sahələri üzrə əldə etdiyi nailiyyətlər, Səhmdar Cəmiyyətinin strateji planları və dağ-mədən sektorunun inkişafı, habelə ətraf mühitin mühafizəsi tədbirləri, yüksək ekoloji standartlara cavab verən innovasiya və texnologiyalara keçid istiqamətində görülən işlər haqqında ətraflı bəhs edərək, ölkə hüdudlarından kənarda dağ-mədən layihələrinin icrasının QSC-nin strateji planlarına daxil olduğunu qeyd edib. O, bu xüsusda "Frontier Works Organization" şirkəti ilə filiz faydalı qazıntı yataqlarının öyrənilməsi, tədqiqi, kəşfiyyatı və istismarı sahəsində birgə əməkdaşlığın qurulmasının qarşılıqlı faydalı olacağına əminliyini ifadə edib.

"Frontier Works Organization" şirkətinin Baş icraçı direktoru Abdul Sami isə rəhbərlik etdiyi dövlət şirkətinin Pakistanda yol tikintisi, dağ-mədən sənayesi, enerji, müdafiə infrastrukturu və digər mühəndislik layihələrinin icrası üzrə ixtisaslaşdığını, "AzerGold" QSC ilə birgə həm Azərbaycan, həm də Pakistanda birgə geoloji kəşfiyyat və mədən layihələrinin icrası istiqamətində əməkdaşlıq əlaqələrinin yaradılması və inkişafında maraqlı olduqlarını qeyd edib.

Görüşün yekunu olaraq "AzerGold" QSC və "Frontier Works Organization" şirkəti arasında əməkdaşlığın konkret istiqamətlərinin müəyyənləşdirilməsi üçün məsləhətləşmələrin aparılması, dağ-mədən sahəsində məlumat mübadiləsinə dair Məlumatların Gizli Saxlanılması (NDA – Non-disclosure agreement) sənədi, eləcə də əməkdaşlığa dair Anlaşma Memorandumunun hazırlanması və imzalanması barədə ilkin razılıq əldə edilib.

Görüşdə, həmçinin "Frontier Works Organization" şirkətinin Baş icraçı direktoru cari ilin aprel ayında keçiriləcək Pakistan Mineral İnvestisiya Forumunda "AzerGold" QSC-ni iştiraka dəvət edib.

QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov dəvətə görə təşəkkür edib, qarşılıqlı səfərlərin həyata keçirilməsinin qurumlar arasında əməkdaşlıq əlaqələrinin qurulması və möhkəmləndirilməsi baxımından vacibliyi diqqətə çatdırılıb.

# Dövlət əmlakının icarəsindən büdcəyə 37 milyon manatdan çox vəsait ödənilib

Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən ötən il ərzində dövlət əmlakının icarəsindən büdcəyə 37,6 milyon manat vəsaitin ödənilməsi təmin edilib.

AZƏRTAC Əmlak Məsələləri Dövlət Xidmətinə istinadla xəbər verir ki, ötən ildə dövlət əmlakının icarəyə verilməsi sahəsində işlər davam etdirilib.

2024-cü il ərzində qeyri-yaşayış sahəsinə dair 646 yeni icarə müqaviləsi bağlanılıb. Bu dövrdə qeyri-yaşayış sahələrinin icarəsindən dövlət büdcəsinə 7,3 milyon manat vəsaitin ödənilməsi təmin olunub. Eyni zamanda, ötən il ərzində dövlət mülkiyyətində olan torpaq sahəsinə dair 3453 yeni icarə müqaviləsi bağlanılıb. Hesabat dövründə torpaq sahələrinin icarəsindən dövlət büdcəsinə 30,3 milyon manat məbləğində vəsait ödənilib.

Ümumilikdə, qeyri-yaşayış və torpaq sahələrinin icarəyə verilməsi ilə bağlı 2024-cü il ərzində 4099 yeni icarə müqaviləsi bağlanılıb. 2023-cü ilin eyni dövrü ilə müqayisədə bağlanan müqavilələrin sayı 15 faiz artıb.

# Bankların qeyri-işlək kreditlərinin strukturu açıqlanıb



Cari ilin yanvarında sonunda Azərbaycanda fəaliyyət göstərən bankların qeyri-işlək kreditlərinin həcmi 690,6 milyon manat təşkil edib.

Trend-in Azərbaycan Mərkəzi Bankından əldə etdiyi məlumata görə, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 45,2 milyon manat və ya 7% çoxdur. Belə ki, ötən ilin yanvarında sonunda Azərbaycanda fəaliyyət göstərən bankların qeyri-işlək kreditlərinin həcmi 645,4 milyon manat idi.

Bəhs olunan dövrdə bankların qeyri-işlək kreditlərinin 389,4 milyon manatı biznes kreditlərinin, 267,2 milyon manatlı istehlak kreditlərinin, 34 milyon manatı isə ipoteka kreditlərinin payın düşüb.

Bankların qeyri-işlək kreditləri ümumi kredit portfelinin 2,5%-ni təşkil edir.

Qeyd edək ki, hesabat ayında bankların kredit portfeli 27,5 milyard manat olub. Kredit portfelinin 14,7 milyard manatı biznes kreditlərinin, 8,5 milyard manatı istehlak kreditlərinin, 4,2 milyard manatı isə ipoteka kreditləri təşkil edib.

Məlumat üçün bildirək ki, qeyri-işlək kredit (Non-Performing Loan - NPL) – borcalanın müəyyən edilmiş müddət ərzində əsas borcu və ya faiz ödənişlərini tam və ya qismən yerinə yetirmədiyi kreditdir. Banklar və maliyyə qurumları bu cür kreditləri adətən 90 gündən (bəzən daha uzun müddətdən) artıq ödənilməmiş borclar kimi təsnif edirlər.

# Azərbaycan iqtisadiyyatına kredit qoyuluşları 5 milyard manata yaxın artıb

Cari ilin yanvar ayının sonuna Azərbaycan iqtisadiyyatına kredit qoyuluşları 29,3 milyard manat təşkil edib. Azərbaycan Mərkəzi Bankından əldə edilmiş məlumata görə, bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 4,9 milyard manat və ya 20,4% çoxdur. Belə ki, 2024-cü ilin yanvar ayının sonuna Azərbaycan iqtisadiyyatına kredit qoyuluşları 24,4 milyard manat idi.

Qeyd edək ki, təkcə yanvar ayında Azərbaycan iqtisadiyyatına kredit qoyuluşları 37,1 milyon manat olub. Belə ki, yanvar ayının sonuna Azərbaycan iqtisadiyyatına kredit qoyuluşları ötən ilin sonu ilə müqayisədə 37,1 milyon manat və ya 0,1% çox olub.

# Texnologiyanın inkişafı ilə tarixə qovuşan sahələr

*Texnologiya insan həyatının müxtəlif sahələrində dəyişiklikləri və irəliləyişləri mümkün edən, sürətlə inkişaf edən bir sahədir. İstər təbii resursların istifadəsi, istərsə də informasiya mübadiləsinin sürətləndirilməsi kimi bir çox aspektdə texnologiya böyük irəliləyişlərə səbəb olmuşdur. Bu inkişafların nəticəsində bir çox ənənəvi sahələr mövcudluqlarını itirmiş və ya köklü dəyişikliklərə məruz qalmışdır. Bu yazıda texnologiyanın inkişafı ilə tarix olan sahələri detallı təhlil edəcəyik, bu sahələrdəki dəyişikliklər və bu dəyişikliklərin yaratdığı sosial-iqtisadi təsirləri araşdıracağıq.*



**Bəhruz Əliyev,
İnformasiya Texnologiyaları üzrə mühəndis-tədqiqatçı, Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının (AKTA) eksperti**

**Ənənəvi poçt xidmətləri:** Poçt xidmətləri tarixin ən qədim kommunikasiya vasitələrindən biridir. Poçt sistemləri ilkin dövrlərdə dövlətlər və imperiyalar tərəfindən məlumat ötürülməsi məqsədilə inkişaf etdirilmişdi. Bu xidmətlər ilk vaxtlarda yalnız məktubların və digər yazılı materialların fiziki daşınmasında istifadə olundu, lakin texnologiyanın inkişafı



ilə daha sürətli və effektiv alternativlər ortaya çıxdı.
Elektron poçt (e-mail) 1970-ci illərdə ilk dəfə tətbiq edilməyə başlasa da, 1990-cı illərin əvvəllərində internetin geniş yayılması ilə ciddi şəkildə populyarlaşdı. Elektron poçt istifadəçilərə məlumatları dərhal göndərmə, alıcıya çatdırma və saxlamada çox yüksək səviyyədə rahatlıq təmin etməyə başladı. Ray Tomlinson tərəfindən icad edilən elektron poçt, həm şəxsi yazışmalarda, həm də iş dünyasında ənənəvi poçt xidmətlərinin yerini aldı. E-poçtun yüksəlməsi ilə məktub göndərməyə olan ehtiyac kəskin şəkildə azalmışdır.
Deloitte (2021) tərəfindən yayımlanan "Digital Communication Trends" adlı tədqiqatda göstərilir ki, e-poçtun istifadəsi hər ötən il artmaqda davam edir və ənənəvi poçt xidmətləri üçün ciddi bir təhdidə çevrilmişdir. E-poçt yalnız şəxsi ünsiyyətdə deyil, həm də biznes aləmində sənədlərin mübadiləsi üçün əsas kommunikasiya kanalı oldu. Cloud-based (bulud əsaslı) sənəd idarəetmə sistemləri və digər rəqəmsal platformalar sənədlərin ötürülməsi və saxlanması prosesini daha da asanlaşdırmışdır.
Rəqəmsal kommunikasiyanın yüksəlişi ilə ənənəvi poçt xidmətləri fiziki paketlərin çatdırılması kimi fəaliyyətlərdə istifadə olunmağa başladı. Bununla belə, sosial media, messenger proqramları və digər onlayn əlaqə vasitələri poçt xidmətlərinin populyarlığını ciddi şəkildə azaldıb.
**Pərakəndə ticarətin E-ticarətə keçidi:** Pərakəndə ticarət illər ərzində insanların gündəlik həyatının ayrılmaz bir hissəsinə çevrilmişdir. Lakin son illərdə e-ticarətin inkişafı ilə ənənəvi pərakəndə ticarət sektoru böyük dəyişikliklərə məruz qalmışdır. İnternet üzərindən alış-verişin yayılması, xüsusən Amazon, Alibaba, eBay və digər onlayn ticarət platformalarının yaranması ilə ənənəvi pərakəndə mağazaların bazar payı sürətlə azalmışdır.
**McKinsey & Company (2020) tərəfindən yayımlanan "Retail Reimagined: The Future of E-Commerce**" adlı araşdırmaya əsasən, onlayn alış-veriş platformalarının üstünlüyü müştərilərə istədikləri məhsulları evdən çıxmadan əldə etmələrini təmin etmişdir. Bu, xüsusən pandemiya dövründə daha da gücləndi və pərakəndə sektorda bir dönüş nöqtəsi oldu. Onlayn alış-verişin tələbi təbii olaraq fiziki mağazalarda əməliyyatların azalmasına gətirib çıxardı.
World Economic Forum (2021) tərəfindən yayımlanan "The Future of Work: Automation and Employment" adlı hesabatda göstərilir ki, pərakəndə sektorunda robotların və avtomatlaşdırmanın artması işçi qüvvəsinin azalmasına səbəb olmuşdur. Artıq bir çox pərakəndə mağazalar texnologiya və robotlardan istifadə etməyə başlayıb.
**Ənənəvi media və çap nəşriyyatlarının rəqəmsal mediaya keçidi:** Ənənəvi media sektorunda ən mühüm sahələrdən biri çap nəşriyyatları olmuşdur. Ənənəvi qəzetlər və jurnallar illər boyu cəmiyyətə məlumat vermək və ictimaiyyətlə əlaqə yaratmaq üçün əsas mənbələrdən biri olmuşdur. Lakin texnologiyanın inkişafı ilə bu sahə, xüsusən internet və sosial media platformalarının yüksəlməsi ilə böyük dəyişikliklərə məruz qalmışdır. Çap nəşrləri artıq müasir dövrdə əvvəlki qədər geniş oxucu kütləsinə malik deyildir.
Pew Research Center (2020) tərəfindən aparılan "State of the News Media" tədqiqatı göstərir ki, ənənəvi qəzetlər və jurnalların oxucu sayı son onillikdə kəskin şəkildə azalmışdır. Sosial media platformaları, məsələn, Facebook, X, Instagram kimi platformalar insanlara daha sürətli və daha çevik şəkildə məlumat əldə etməyə imkan verir. Bu, ənənəvi media sistemlərinin dəyişməsinə və həmçinin, jurnalistlər üçün iş imkanlarının rəqəmsal aləmdə formalaşmasına gətirib çıxarmışdır.
YouTube, TikTok, X və digər sosial media platformaları, ənənəvi medianın yerini alaraq, məlumat yayımını daha interaktiv və sərbəst şəkildə həyata keçirir. Bu dəyişikliklər həm də ənənəvi jurnalistikanın yeni formalarına yol açmışdır. Sosial media istifadəçilərinin gündəlik xəbərləri izləməsi ənənəvi televiziya və qəzetlərin yerini əsasən əvəz etmişdir.



**Ənənəvi bankçılıqdan kriptovalyutalar və blockchain texnologiyasına keçid:** Ənənəvi bankçılıq xidmətləri, fiziki olaraq, bank filiallarında müştərilərə xidmətə əsaslanırdı. Lakin son illərdə mobil bankçılıq tətbiqləri və onlayn ödəniş sistemləri bu sektoru dəyişdirərək, bank xidmətlərini daha çevik və əlçatan etməyə başlamışdır. Rəqəmsal ödəniş platformaları müştərilərə dünyanın hər yerində asanlıqla maliyyə əməliyyatları aparmağa imkan verir.
Kriptovalyutalar və blockchain texnologiyası isə ənənəvi maliyyə sistemlərinə ciddi təhdid yaratmışdır. Bitcoin, Ethereum kimi rəqəmsal valyutalar, mərkəzləşdirilməmiş maliyyə əməliyyatları təklif edərək, ənənəvi bankçılıq və maliyyə sistemlərinin yerini ala biləcək potensiala malikdirlər.
**Financial Times (2020) tərəfindən yayımlanan "The Future of Banking:** Digital and Decentralized" adlı araşdırmaya görə, kriptovalyutaların və blockchain texnologiyalarının yayılması, bankların və digər maliyyə qurumlarının fəaliyyətini yenidən qurmasına səbəb olacaq.
**Ənənəvi təhsildən onlayn təhsil platformalarına keçid:** Ənənəvi təhsil sistemi sinif otağında müəllim və tələbə arasında birbaşa əlaqə ilə həyata keçirilən tədris prosesinə əsaslanırdı. Lakin son dövrlərdə texnologiyanın inkişafı ilə onlayn təhsil platformaları və virtual siniflər ənənəvi təhsil metodlarını əvəz etməyə başlamışdır. Coursera, edX, Udacity kimi platformalar tələbələrə müxtəlif sahələrdə dərslər və kurslar təklif edərək təhsil anlayışını dəyişdirib.
Pandemiya dövründə Zoom, Google Classroom və Microsoft Teams kimi platformaların geniş yayılması, təhsil sistemindəki ənənəvi yanaşmaların dəyişdirdi və onlayn təhsilin populyarlığını artırdı. Educause (2020) tərəfindən yayımlanan "Online Education: A Study of the Impact of Online Learning" tədqiqatına əsasən, onlayn təhsil daha çevik və əlverişli olduğu üçün təhsil müəssisələri tərəfindən mənimsənilməyə davam edir.
Texnologiyanın inkişafı, ənənəvi sahələrin böyük ölçüdə dəyişməsinə və ya məhv olmasına səbəb olmuşdur. Poçt xidmətlərindən tutmuş, pərakəndə ticarətə, bankçılıqdan təhsilə qədər bir çox sahələrdə texnologiya ənənəvi iş üsullarını əvəz edərək yeni əmək bazarı, iş mühiti və sosial strukturlar yaratmışdır. Bu dəyişikliklərin hər biri, həm mövcud sahələrin təkamülünü, həm də cəmiyyətin strukturunun dəyişməsini təmsil edir. Gələcəkdə texnologiyanın daha da inkişaf etməsi ilə daha çox sahənin rəqəmsal inqilaba uğrayacağı və ənənəvi modellərin azalmağı gözlənilir.

## Gömrük-biznes əməkdaşlığı çərçivəsində növbəti görüş keçirilib

Astara Gömrük İdarəsinin təşəbbüsü ilə “Lənkəran Konserv Zavodu” MMC-də görüş keçirilib.
Görüş sahibkarların gömrük sistemində həyata keçirilən yeniliklər və təkmilləşdirilmələr barədə məlumatlandırılması, onların təklif və rəylərinin öyrənilməsi məqsədilə təşkil olunub.



Gömrükçülərə müəssisənin fəaliyyəti, istehsal etdiyi məhsulların çeşidləri barədə geniş məlumat verilib, idxal-ixrac əməliyyatları zamanı qaşıya çıxan məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

## Azərbaycan sement ixracından gəlirlərini artırıb

Cari ilin yanvar ayında Azərbaycandan xaricə 68,3 min ton hazır və ya klinker formasında olan sement ixrac edilib.
Trend-in Dövlət Gömrük Komitəsindən əldə etdiyi məlumata görə, bu miqdarda məhsul ixracından əldə olunan gəlir 4,25 milyon ABŞ dolları olub.
Sement ixracı ötən ilin eyni dövrü ilə müqayisədə miqdar ifadəsi ilə 6,3 min ton və ya 10,2%, dəyər ifadəsi ilə 750 min AŞB dolları, yaxud da 21,4% artıb.
Belə ki, 2024-cü ilin yanvar ayında Azərbaycandan xaricə 62 min ton miqdarında, 3,5 milyon ABŞ dolları dəyərində hazır və ya klinker formasında olan sement ixrac edilib.
Qeyd edək ki, bu ilin yanvar ayında Azərbaycanda 355,4 min ton beton istehsal edilib. Bu, 2024-cü ilin eyni ayındakı göstərici ilə müqayisədə 17,1 min ton və ya 5% çoxdur.
Bu ilin fevalın 1-i vəziyyətinə ölkədə hazır məhsul ehtiyatı 5,8 min ton təşkil edib.



## Kənd təsərrüfatı sahəsinə verilmiş biznes kreditlərinin həcmi açıqlanıb

Bu ilin yanvar ayının sonuna olan məlumata görə, Azərbaycanda fəaliyyət göstərən banklar tərəfindən kənd təsərrüfatı sahəsinə verilmiş biznes kreditlərinin həcmi 1,776 milyard manata düşüb.
Məlumata görə, bu göstərici ötən ilin sonu ilə müqayisədə 10 milyon manat və ya 0,6% azdır. Belə ki, 2024-cü ilin sonunda Azərbaycandakı banklar tərəfindən kənd təsərrüfatı sahəsinə verilmiş biznes kreditlərinin həcmi 1,786 milyard manat olub.
Qeyd edək ki, hesabat ayında bankların kredit portfeli 27,5 milyard manat olub. Kredit portfelinin 14,7 milyard manatı biznes kreditlərinin, 8,5 milyard manatı istehlak kreditlərinin, 4,2 milyard manatı isə ipoteka kreditlərinin payına düşüb.
Biznes kreditlərinin həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 1,8 milyard manat və ya 13,9% artıb. 2024-cü ilin ilk ayının sonunda Azərbaycanda fəaliyyət göstərən banklar tərəfindən verilmiş biznes kreditlərinin həcmi 12,9 milyard ABŞ dolları idi.

## Ötən ay daşınmaz əmlakın icbari sığortası üzrə yığımlar 10% artıb



2025-ci ilin yanvarında Azərbaycanda daşınmaz əmlakın icbari sığortası üzrə 3 milyon 914 min manat sığorta haqqı toplanılıb.
Bu barədə Banker.az-a Azərbaycan Mərkəzi Bankından bildirilib. Məlumata görə, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 10% çoxdur. 2024-cü ilin ilk ayında daşınmaz əmlakın icbari sığortası üzrə yığımlar 3 milyon 571 min manat təşkil edib. Son 1 ildə bu sığorta növü üzrə sığorta ödənişi isə 2.3 dəfə artaraq 204 min manat olub.

# Avropa liderləri Londonda müdafiə məsələlərini müzakirə edəcək

"Avropa təhlükəsizliyi və Ukrayna məsələlərinin müzakirəsi üçün martın 6-da keçiriləcək xüsusi sammit ərəfəsində Avropa liderləri Londonda toplaşacaq".
Bu barədə Polşa Baş naziri Donald Tusk açıqlama verib.
O bildirib ki, bir qrup Avropa lideri martın 2-də Londona gedəcək və orada birgə müdafiə və təhlükəsizlik planlarını müzakirə edəcək.



D.Tuskun sözlərinə görə, Avropa Komissiyası hazırda müdafiə paketi üzərində işləyir və bu paketin detalları martın 6-da keçiriləcək Avropa İttifaqı liderlərinin xüsusi sammitində açıqlanacaq: ***"Bu görüşdən öncə, bazar günü biz Britaniyadakı dostlarımız və bir qrup liderlə birlikdə Londonda olacağıq və birgə müdafiə planlarımızı müzakirə edəcəyik"***,- deyə o əlavə edib.

# Almaniyada ÜDM azalıb



2024-cü ilin dördüncü rübündə Almaniyanın ümum daxili məhsulu (ÜDM) əvvəlki üç ayla müqayisədə 0,2 faiz azalıb.
Bu barədə ölkənin yerli KİV-ləri hesabat hazırlayıb.
Hesabata görə, Almaniyanın istehlak xərcləri oktyabr-dekabr aylarında öncəki rüblə müqayisədə 0,1 faiz, dövlət xərcləri isə 0,4 faiz artıb. Əsas kapitalda ümumi investisiyaların həcmi 0,4 faiz artıb.
Bununla yanaşı, ixrac həcmi dördüncü rübdə 2.2 faiz azalıb, idxal həcmi isə 0,5 faiz çoxalıb.
İllik ifadədə Almaniyanın ÜDM-i oktyabr-dekabr aylarında 0,2 faiz azalıb ki, bu da analitiklərin verdiyi proqnozlarla üst-üstə düşüb.

# ABŞ 5 milyon dollara "qızıl kart" təqdim edəcək



"ABŞ ölkəyə köçmək istəyənlər üçün 5 milyon dollar dəyərində "qızıl kart" təqdim edəcək". Trend xəbər verir ki, bu barədə ABŞ prezidenti Donald Tramp Oval kabinetdə jurnalistlərə açıqlama verib.
Yeni proqram çərçivəsində "qızıl kart" sahibi ABŞ-da yaşamaq və işləmək hüququ əldə edəcək, həmçinin gələcəkdə vətəndaşlıq almaq imkanı qazanacaq. Bu təşəbbüs mövcud EB-5 investor viza proqramını əvəz edəcək.
ABŞ-ın Ticarət naziri Hovard Latnik bildirib ki, "qızıl kart" almaq istəyən şəxslər müəyyən yoxlamalardan keçməli olacaqlar.
Prezident Tramp proqramın təxminən iki həftə ərzində başlamasının planlaşdırıldığını qeyd edib.

# Asiyanın iri bankında kütləvi ixtisarlar - Süni intellekt insanları əvəz edəcək

Siqapurun ən iri banklarından sayılan DBS növbəti üç il ərzində azı dörd min işçini ixtisar edəcəyini elan edib. İxtisar olunan işçilərin vəzifələrini bundan sonra süni intellekt yerinə yetirəcək.
Bu haqda BBC məlumat yayıb.
DBS bankının hazırda müvəqqəti əsaslarda və ya yarımştat işləyən işçilərinin sayı 8-9 min arasıdır. İxtisarların daimi əsaslarda işləyən əməkdaşlara toxunmayacağı bildirilir. Bankın ümumi insan resursu 41 minə yaxındır.



İxtisarlarla yanaşı, şirkətin süni intellektlə əlaqədar təxminən 1000 yeni vakansiya yaradacağı bildirilir.
***"Bu gün biz 350 əməliyyat üçün 800-dən çox süni intellekt modelindən istifadə edirik və bunun iqtisadi təsirinin 2025-ci ildə bir milyard Sinqapur dollarına ($745,000) yaxın olacağı gözlənilir"***, - deyə DBS baş icraçı direktoru Piyuş Qupta bildirib.

# Alimlər elektron siqaretin acı fəsadlarını müəyyən edib



Mançester Metropoliten Universitetinin alimləri elektron siqaretlərdən istifadə edən şəxslərin daha çox nikotin qəbul etdiyini müəyyən edib. Bu isə insanda demensiya, poliorqan çatışmazlığı və ürək-damar xəstəlikləri riskini artırmış olur.
Elmi araşdırmanın nəticələri "British Medical Journal" dərgisində nəşr olunub.
Elmi işin həmmüəllifi Maksim Boydenin sözlərinə görə, veyplərin" əsas təhlükəsi insanların onu həddən çox çəkməsi ilə əlaqədardır.
Alimlər qeyd edir ki, ənənəvi siqaret çəkən insanda prosesin başa çatması hissi yaranır, elektron siqaretdən istifadə edən zaman isə insan bu prosesi istənilən şəraitdə davam etdirir.
Tədqiqatlar veyperlərin damar sistemlərində ciddi dəyişikliklərin müşahidə olunduğunu göstərir. Bu pozuntular beynin qanla təminatını pisləşdirir və koqnitiv pozuntuların inkişafına, o cümlədən demensiyaya yol aça bilir.

# Müasir Azərbaycan səhiyyə tarixində yeni mərhələ: meyit donorun orqanları transplantasiya edildi

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyindəki Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzinə Kliniki Tibbi Mərkəzdə müalicə alan pasiyentə beyin ölümü diaqnozunun qoyulmasına dair məlumat daxil olub. Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzi tərəfindən orqan donorluğu və transplantasiyası prosesinin təşkili və əlaqələndirilməsi üzrə aidiyyəti tədbirlər həyata keçirilib.
Beyin ölümü diaqnozu qoyulmuş vətəndaşın orqanlarının transplantasiyasına ailəsi razılıq verib. Bununla da, orqan donorluğu və transplantasiyası sahəsində müasir Azərbaycan səhiyyə tarixində ilkə imza atılıb.
Meyit donordan götürülmüş qaraciyər Mərkəzi Gömrük Hospitalında, tibb üzrə fəlsəfə doktoru Mircəlal Kazıminin rəhbərlik etdiyi peşəkar tibbi heyət tərəfindən hepatit B və hepatit D-yə görə qaraciyər sirrozundan əziyyət çəkən, canlı donoru olmayan 12.10.2002-ci il təvəllüdlü Şərifova Mənzər Yaşar qızına köçürülüb.
Gözün buynuz qişası Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzində ixtisaslaşmış cərrah-oftalmoloq, tibb üzrə fəlsəfə doktoru Cəmil Həsənov və peşəkar komanda tərəfindən iki resipiyentə köçürülüb. Onlardan biri Zaqatala, digəri isə Füzuli rayon sakinidir.
Bildiririk ki, bu əməliyyatlar yalnız ölkəmizdə deyil, həmçinin Qafqaz regionunda ilk dəfə meyit donordan alınan orqan transplantasiyası əməliyyatlarıdır.
Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi donorun yaxınlarına nəcib davranışlarına görə minnətdarlığını bildirir, peşə vəzifələrini yüksək səviyyədə icra etmiş tibb mütəxəssislərinə təşəkkür edir və gələcək fəaliyyətlərində uğurlar arzulayır.



**Dilarə Zamanova, Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi**

# "AzerGold" və Milli Xalça Muzeyi Xocalı soyqırımı ilə bağlı anım tədbiri keçirib

"AzerGold" QSC və Azərbaycan Milli Xalça Muzeyinin birgə təşkilatçılığı ilə Xocalı soyqırımının 33-cü ildönümü ilə bağlı anım tədbiri keçirilib. Milli Xalça Muzeyində təşkil edilən tədbirdə "AzerGold" QSC və onun törəmə şirkətləri – "Daşkəsən Dəmir Filiz" MMC və "AzerBlast" MMC, eləcə də muzeyin rəhbərliyi və kollektivi iştirak edib.




Anım mərasimində çıxış edən Milli Xalça Muzeyinin direktoru Əminə Məlikova Xocalı soyqırımının XX əsrin ən qanlı cinayətlərindən biri kimi bəşər tarixinə düşdüyünü, bu faciənin xalqımızın yaddaşında dərin izlər buraxdığını diqqətə çatdırıb. Təcavüzkar Ermənistan dövlətinin təkcə Azərbaycan xalqına deyil, mədəni irsimizə və tariximizə qarşı terror siyasəti yürütdüyünü xatırladan direktor işğalçılıq siyasəti yürüdən ermənilərin torpaqlarımızla yanaşı, milli mədəniyyət nümunələrimizi, eləcə də Qarabağ xalçalarını mənimsəməyə, özününküləşdirməyə cəhd göstərdiklərini, lakin bütün bu əməllərə Azərbaycan dövləti və xalqı tərəfindən layiqli cavabların verildiyini qeyd edib.
Tədbirdə çıxış edən "AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov isə cənab Prezident İlham Əliyevin liderliyi, qalib Ordumuzun gücü ilə işğaldan azad edilmiş digər şəhər və rayonlarımız kimi Xocalının da öz həqiqi sahiblərinə qaytarıldığını, faciə qurbanlarının qisasının döyüş meydanında qətiyyətlə alındığını, Xocalı canilərinin bu gün ədalət qarşısında cavab verdiklərini bildirib. Ötən ildən başlayaraq Xocalı sakinlərinin mərhələli şəkildə öz doğma yurd-yuvalarına köç etdiyini diqqətə çatdıran Zakir İbrahimov bununla artıq Xocalı soyqırımının ildönümlərinin xalqımız tərəfindən nikbin ovqatda qeyd edildiyini vurğulayıb.
Tədbirdə, həmçinin Birinci vitse-prezident Mehriban xanım Əliyeva, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva tərəfindən Xocalıda yaşanan soyqırımı həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, "Xocalıya ədalət" beynəlxalq təbliğat-təşviqat kampaniyası çərçivəsində görülmüş işlər xüsusi qeyd edilib.
Dövlətimiz tərəfindən həyata keçirilən məqsədyönlü fəaliyyət nəticəsində dünya birliyi tərəfindən Xocalıda dinc əhalinin qətliamını pisləyən və bunu insanlıq əleyhinə cinayət aktı kimi dəyərləndirən çoxsaylı qətnamə və qərarların qəbul edildiyi diqqətə çatdırılıb.
Çıxışlardan sonra Xocalı faciəsinə həsr olunmuş bədii-sənədli film nümayiş olunub. Daha sonra əməkdar rəssam Aydın Rəcəbovun eskizi əsasında Xocalı sakinləri tərəfindən toxunmuş "Ana fəryadı" xalçasına baxış keçirilib.

# Daşkəsəndə yerli sahibkarlarla görüş keçirilib

"AzerGold" QSC tərəfindən Daşkəsən rayonunda sahibkarlıq fəaliyyəti göstərən hüquqi və fiziki şəxslərlə görüş keçirilib.
Daşkəsən Rayon İcra Hakimiyyətində təşkil olunan görüşdə rayon icra hakimiyyəti başçısının müavini Vüqar Məmmədov, "AzerGold" QSC-nin Satınalmalar və təchizat zəncirinin idarəolunması şöbəsinin müdiri Əminağa Dadaşov, Dövlət Məşğulluq Agentliyinin Gəncə-Daşkəsən Regional Məşğulluq filialı, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin nümayəndələri, eləcə də yerli sahibkarlar iştirak ediblər.



Görüş Daşkəsən rayonunda aktiv hasilat və istehsalat fəaliyyəti həyata keçirən "AzerGold" QSC-nin milli qanunvericiliyin tələbləri, mütərəqqi beynəlxalq təcrübə əsasında təşkil etdiyi satınalma müsabiqələrində yerli sahibkarların iştirakının təşviq edilməsi məqsədilə təşkil edilib.
Görüşdə Səhmdar Cəmiyyətinin tətbiq etdiyi "Satınalma qaydaları" haqqında sahibkarlara geniş məlumat verilib, müsabiqələrə müraciət qaydası, iştirak proseduru ətraflı izah edilib. Tədbir iştirakçılarına, həmçinin satınalmalarda iştirakın planlaşdırılması, ixtisas uyğunluğu göstəriciləri, müqavilənin icrası, satınalma sənədləri, təkliflərin təqdim edilməsi və qiymətləndirilməsi, nəticələrin öyrənilməsi və prosesə nəzarət mexanizmləri barədə müfəssəl məlumatlar verilib.
Qeyd olunub ki, Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə sahibkarlığın inkişafı istiqamətində həyata keçirilən sistemli və ardıcıl tədbirlər, qanunvericilik bazasının təkmilləşdirilməsi, inzibati prosedurların sadələşdirilməsi və vergi güzəştlərinin tətbiqi istiqamətində görülmüş işlər nəticəsində sahibkarlar üçün geniş imkanlar yaradılıb. Bu imkanlardan maksimum yararlanmaq, regionlarda məşğulluğun, iqtisadi aktivliyin artırılması, bölgənin iqtisadi rifahına davamlı töhfələrin verilməsi üçün mikro, kiçik, orta və iri sahibkarlıq subyektləri satınalma proseslərində daim fəal iştirak etməlidirlər.
Sonda sahibkarlarla fikir mübadiləsi aparılıb, onları maraqlandıran suallar cavablandırılıb.

## ALLAH RƏHMƏT ELƏSİN

Akademik Ziyad Səmədzadə professor Həsən İsrafilova əzizi
**ÇİMNAZ İSRAFİLOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Professor Elşən Hacızadə və professor Fuad Hacızadə professor Həsən İsrafilova əzizi
**ÇİMNAZ İSRAFİLOVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Elşən Hacızadə, Ədalət Muradov, Bəyalı Ataşov, Vahid Novruzov, Rəsul Balayev, Süleyman Qasımov, Zahid Məmmədov, Elşad Səmədzadə, Qüdrət Kərimov, Məhiş Əhmədov, Aydın Hüseynov, Abbas Əliyev

www.iqtisadiyyat.com

Redaksiyanın ünvanı: Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq: +99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500